

İnformasiya cəmiyyətinin bərqərar olması ilə əlaqəli proseslər əyani surətdə nümayiş etdirir ki, müasirlik və kreativlik, yüksək keyfiyyətli təhsil və işgüzarlıq olan yerdə gəncliyə xas yenilikçi düşüncə sivilizasiyanın bütövlükdə simasını dəyişdirə bilər. İnanıram ki, hazırda müasir dünyada qarşılaşdığımız bir çox problemlərin həlli məhz gəncliyin tükənməz enerjisi və qətiyyəti sayəsində həllini tapacaq.

**İlham Əliyev,**

Azərbaycan Respublikasının Prezidenti

# 2014/2015-ci TƏDRİS İLİNDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏKTƏBLƏRİNƏ DAXİL OLMUŞ TƏLƏBƏLƏRƏ

# PREZİDENT TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. 2014/2015-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abbasova Ləman Ədalət qızı
Abdullayev Kamran Elnur oğlu
Adıgözəlov Toğrul Tərlan oğlu
Ağabəyova Xanım Məmməd qızı
Ağakişiyeva Zülfiyyə Elxan qızı
Alıyev Emil Rizvan oğlu
Allahverdiyev Surxay Əsədulla oğlu
Alpaşayev Vüqar Kazım oğlu
Aşirov Yusif Cümşüd oğlu
Ayralov Zaur Arif oğlu
Baxşəliyeva Aydan Novruz qızı
Baxşılı Əmiraslan Baldadaş oğlu
Cəfərli Sevinc Nazim qızı
Cəfərova Aytac Nayib qızı
Cəfərova Nigar Tələt qızı
Dadaşzadə Xalıq Yusif oğlu
Eminov Kənan Zabil oğlu
Əbilov Elmir Adil oğlu
Əkbərov İsmayıl İbrahim oğlu
Ələkbərli Əli Azər oğlu
Ələkbərova Fidan Etibar qızı
Əlizadə Elnur Əfqan oğlu
Əlizadə Fidan Rüfət qızı
Əlizadə Zakir İlqar oğlu
Əsgərbəyli Aygün Əliağa qızı
Əsgərova Fatimə Vüqar qızı
Əzizzadə Nazim Mirzə oğlu
Hacılı Məmməd İsmayıl oğlu
Hacıyev Mustafa Polad oğlu
Heydərova Gülşən Heydər qızı
Həmidli Fərid Kamil oğlu
Həmzəyeva İnarə Əmir qızı
Həsənov Həsən Ağabala oğlu
Həsənova Fidan Zahir qızı
Həsənova Gülüsüm Ələddin qızı
Həsənzadə Rasim Rafael oğlu
Həşimli Faiq Həşim oğlu
Hüseynov Ağamirzə Qaçay oğlu
Xəlilov Oruc Şəmsəddin oğlu
Xurşudova Minayə İbrahim qızı
İbrahimov Eltun Nazim oğlu
İmaməliyev Elnur Müşfiq oğlu
İsgəndərova İlahə Sahib qızı
İsmayılova Səbinə Vüqar qızı
Kərimli Qəzənfər Fikrət oğlu
Qaffarlı Selcan Mənsur qızı
Qarazadə Rəmziyyə Elnur qızı
Qasımov Amil Mayis oğlu
Qasımov Əli Müşviq oğlu
Qasımov Nicat Nazim oğlu
Qasımov Nizami Eldar oğlu
Qasımova Lamiyə Elman qızı
Qədimbəyli Qoşqar Azər oğlu
Qəhrəmanova Aytac Möhsüm qızı
Quliyev Elşən Nizami oğlu
Quliyev Fuad Firudin oğlu
Quluzadə Nurlan Fəzayıl oğlu
Qurbanlı Könül Yusif qızı
Qüdrətli Qəmər Əhməd qızı
Mahmudov Şəmisdan Akim oğlu
Mahmudzadə Zaur Əhliman oğlu
Mehdiyeva Vəfa Elman qızı
Mehrəlizadə Orxan Polad oğlu
Məhərrəmov Taleh Qardaşxan oğlu
Məmişov Şaiq Paşa oğlu
Məmmədalıyev Teymur Yaqub oğlu
Məmmədli Çingiz Emin oğlu
Məmmədli Xalid Ramiz oğlu
Məmmədli Səbinə Sahil qızı
Məmmədov Namiq Natiq oğlu
Məmmədova Günel Murad qızı
Məmmədrzayeva Gülnar Ehtibar qızı
Məmmədzadə İlkin Rəfael oğlu
Məmmədzadə Kamil Bağman oğlu
Mikayıllı Mikayıl Hikmət oğlu
Mikayılov Fəhmin Bəybala oğlu
Mirişli Rauf Akif oğlu
Mohayəddin Burhan Mohəmməd oğlu
Muradov Allahverdi Elçin oğlu
Mustafayeva Səbinə Sərvər qızı
Nağıyeva Arzu Qulu qızı
Nəbizadə Fatimeyizəhra Nemət qızı
Nəsirli Kifayət Rəfail qızı
Nəsirzadə Aydın Teymur oğlu
Nəzərova Zəhra Xudaverdi qızı
Novruzlu Günay Ramazan qızı
Novruzov Elmar Eldar oğlu
Rəhimli Kənan Sənani oğlu
Rəhimli Ləman Əzəmət qızı
Rustamzadə Fərid Bəxtiyar oğlu
Rzayev Elvin Elçin oğlu
Rzayev Samir Zahid oğlu
Səfərova Ayşən Şahin qızı
Süleymanova Afina Rasim qızı
Süleymanova Fəridə Azər qızı
Şərifov Ayaz Araz oğlu
Şirinli Nəbi Telman oğlu
Şükürlü Mədinə Eldar qızı
Tağıyeva Təranə Şükür qızı
Yusifzadə Günay Tağı qızı
Zeynallı Aysel Fəzail qızı
Ziyatxanlı Murad Ratxan oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 9 sentyabr 2014-cü il**



*M.Abbaszadə,*
*Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri*

## ƏZİZ GƏNCLƏR!

Sizi qəbul imtahanlarında yüksək nəticələr əldə etməyiniz, yaxşıların yaxşısı səviyyəsinə ucalmağınız münasibətilə səmimi qəlbdən təbrik edirəm. Hamınıza gələcək həyatınızda və təhsilinizdə böyük uğurlar, möhkəm can sağlığı və xoşbəxtlik arzu edirəm. Qazandığınız müvəffəqiyyət sizin bundan sonrakı fəaliyyətinizin etibarlı bünövrəsidir. Sizin gələcəkdə yüksək səviyyəli mütəxəssis, alim, pedaqoq, ictimai və dövlət xadimi kimi yetişmək potensialınız vardır. Siz özünüzü ölkəmizin, xalqımızın qarşısında duran vəzifələrin həllində fəal iştirak etməyə hazırlamalı, bunun üçün ilk növbədə yüksək bilik və bacarıqlara yiyələnməyə davam etməli, yaxşı mütəxəssis olmağa çalışmalısınız.

Siz öz bilik və bacarığınız, təcrübəniz, özünüzə qarşı tələbkarlığınız, əməksevərliyiniz və çalışqanlığınızla şagirdlərə – gələcək abituriyentlərə örnəksiniz. Ümidvaram ki, ali təhsil pilləsində də siz tələbə həmkarlarınıza nümunə olacaqsınız.

Siz gənc həyatınızın ilk ən böyük imtahanından zəfərlə çıxmısınız. Amma qarşıda hələ sizi müxtəlif imtahanlar gözləyir. Arzu edirəm ki, bu imtahanlardan da alnıaçıq çıxasınız.

***Dostlar!*** Həyatda insan üçün ən qiymətli sərvət vaxtdır. Görülən bütün işlər, qazanılan bütün uğurlar məhz müəyyən vaxt çərçivəsində əldə olunur. Ancaq vaxt başlanğıcda – start vəziyyətində hələ potensial sərvətdir. Ondan yalnız səmərəli istifadə etdikdə, onu məzmunlu, mənalı keçirdikdə real sərvətə çevrilir. Bu baxımdan siz gənclər daha böyük vaxt ehtiyatına – potensial sərvətə maliksiniz. Çalışın həyatınızın hər bir anı səmərəli, mənalı və maraqlı keçsin, yeni-yeni nailiyyətlərlə zənginləşsin. Uğurlarınız davamlı, dayanıqlı və daimi olsun. Ümidvarıq ki, təbiətinizə xas olan yeniliklərə həssaslıq, qavrayış çevikliyi, cəsarət və qətiyyət sizə öz potensial imkanlarınızı, bacarıq və qabiliyyətlərinizi realizə etməyə kömək edəcək. Qoy yeni həyat quran ölkəmizin inamlı tərəqqisi, inkişafı sizin üçün örnək və qürur mənbəyi olsun. Unutmayın ki, sizin intellektual inkişafınız və yüksəlişiniz məhz birbaşa Azərbaycanın çiçəklənməsi ilə bağlıdır.

İnanırıq ki, sizin aranızdan Azərbaycanımızı nüfuzlu beynəlxalq müsabiqələrdə və elmi konfranslarda layiqincə təmsil edənlər yetişəcək.

# PREZİDENT TƏQAÜDÇÜLƏRİ HAQQINDA MƏLUMAT

Azərbaycan Respublikası Prezidentinin 9 sentyabr 2014-cü il tarixli sərəncamına əsasən bu il Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 102 tələbəyə Prezident təqaüdü təyin edilmişdir.

I ixtisas qrupunda Prezident təqaüdünə 682 bal və daha yüksək nəticə göstərmiş tələbələr layiq görülmüşlər. Onlardan 8 nəfəri qız, 17 nəfəri isə oğlandır.

II ixtisas qrupunda Prezident təqaüdünə 677 bal və daha yüksək nəticə göstərmiş tələbələr layiq görülmüşlər. Onlardan 4 nəfəri qız, 21 nəfəri isə oğlandır.

III ixtisas qrupunda Prezident təqaüdünə 675 bal və daha yüksək nəticə göstərmiş tələbələr layiq görülmüşlər. Onlardan 17 nəfəri qız, 8 nəfəri isə oğlandır.

IV ixtisas qrupunda Prezident təqaüdünə 679 bal və daha yüksək nəticə göstərmiş tələbələr layiq görülmüşlər. Onlardan 13 nəfəri qız, 12 nəfəri isə oğlandır.

Naxçıvan Muxtar Respubikasından isə II ixtisas qrupu üzrə qəbul imtahanında 674 bal toplamış 1 nəfər oğlan və IV ixtisas qrupunda 677 bal toplamış 1 nəfər oğlan Prezident təqaüdünə layiq görülmüşlər.

Ümumilikdə Prezident təqaüdünə layiq görülmüş tələbələrdən 42 nəfəri qız, 60 nəfəri isə oğlandır.

Prezident təqaüdçülərindən 25 nəfər Azərbaycan Tibb Universitetinə, 22 nəfər Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına, 21 nəfər Azərbaycan Diplomatik Akademiyasına, 17 nəfər Bakı Ali Neft Məktəbinə, 10 nəfər "Qafqaz" Universitetinə, 3 nəfər Bakı Dövlət Universitetinə, 1 nəfər Azərbaycan Dillər Universitetinə, 1 nəfər Azərbaycan Dövlət İqtisad Universitetinə, 1 nəfər Naxçıvan Dövlət Universitetinə, 1 nəfər Azərbaycan Dövlət Neft Akademiyasına daxil olmuşdur.

**Aşağıda Prezident təqaüdçülərinin bitirdikləri məktəblər üzrə siyahısını təqdim edirik:**

| **QRUP** | **Bakı şəhəri** | **20 nəfər** |
|---|---|---|
| I | "Zəngi" liseyi - 289 saylı orta məktəb – *Qurbanlı Könül Yusif qızı* | 1 |
| | Kimya – biologiya təmayüllü lisey – *İbrahimov Eltun Nazim oğlu* | 1 |
| | Bakı Özəl Türk liseyinin "Dədə Qorqud" filialı – *Hacılı Məmməd İsmayıl oğlu, Məmmədli Çingiz Emin oğlu* | 2 |
| | Bakı Türk liseyi ( BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) – *Nəbizadə Fatimeyizəhra Nemət qızı, Şirinli Nəbi Telman oğlu, Mehrəlizadə Orxan Polad oğlu* | 3 |
| | 287 saylı "Zəkalar" liseyi – *Quluzadə Nurlan Fəzayıl oğlu, Rəhimli Ləman Əzəmət qızı* | 2 |
| | 167 saylı orta məktəb – *Baxşılı Əmiraslan Baldadaş oğlu* | 1 |
| | BDU-nun nəzdində "Gənc istedadlar" liseyi – *Hacıyev Mustafa Polad oğlu, Əkbərov İsmayıl İbrahim oğlu* | 2 |
| | 116 saylı orta məktəb – *Cəfərova Nigar Tələt qızı* | 1 |
| | 261 saylı orta məktəb – *Nəsirzadə Aydın Teymur oğlu, Mohayəddin Burhan Mohəmməd oğlu* | 2 |
| | 3 saylı orta məktəb – *Şərifov Ayaz Araz oğlu* | 1 |
| | "Ankara Məktəbi" məktəb - lisey – *Qarazadə Rəmziyyə Elnur qızı* | 1 |
| | Fizika, riyaziyyat və informatika təmayüllü lisey – *Səfərova Ayşən Şahin qızı* | 1 |

| | | |
|---|---|---|
| I | 310 saylı orta məktəb – *Cəfərli Sevinc Nazim qızı* | 1 |
| | 126 saylı orta məktəb – *Həsənzadə Rasim Rafael oğlu* | 1 |
| | **Sumqayıt şəhəri** | **2 nəfər** |
| | Texniki və təbiət elmləri liseyi – *Əbilov Elmir Adil oğlu* | 1 |
| | Təbiət elmləri təmayüllü gimnaziya – *Mahmudzadə Zaur Əhliman oğlu* | 1 |
| | **Bərdə rayonu** | **1 nəfər** |
| | Texniki təmayüllü məktəb – lisey – *Şükürlü Mədinə Eldar qızı* | 1 |
| | **Zaqatala rayonu** | **1 nəfər** |
| | Humanitar təmayüllü gimnaziya – *Muradov Allahverdi Elçin oğlu* | 1 |
| | **Kürdəmir rayonu** | **1 nəfər** |
| | Muradxan kənd orta məktəbi – *Məmişov Şaiq Paşa oğlu* | 1 |

| QRUP | Bakı şəhəri | 13 nəfər |
|---|---|---|
| II | Bakı Türk liseyi ( BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) – *Rzayev Samir Zahid oğlu, Adıgözəlov Toğrul Tərlan oğlu* | 2 |
| | 287 saylı "Zəkalar" liseyi – *Qədimbəyli Qoşqar Azər oğlu* | 1 |
| | Azərbaycan Respublikası Təhsil Nazirliyi, Heydər Əliyev adına lisey – *Kərimli Qəzənfər Fikrət oğlu, Rəhimli Kənan Sənani oğlu* | 2 |
| | 169 saylı orta məktəb – *Aşirov Yusif* | 1 |
| | 236 saylı orta məktəb – *Məmmədli Xalid Ramiz oğlu* | 1 |
| | 215 saylı orta məktəb – *Həsənova Fidan Zahir qızı* | 1 |
| | 74 saylı orta məktəb – *Həsənov Həsən Ağabala oğlu, Alıyev Emil Rizvan oğlu* | 2 |
| | 214 saylı orta məktəb – *Həmzəyeva İnarə Əmir qızı* | 1 |
| | 91 saylı orta məktəb – *Mikayıllı Mikayıl Hikmət oğlu* | 1 |
| | 166 saylı məktəb – lisey - *Mikayılov Fəhmin Bəybala oğlu* | 1 |
| | **Sumqayıt şəhəri** | **5 nəfər** |
| | Təbiət elmləri təmayüllü gimnaziya – *Allahverdiyev Surxay Əsədulla oğlu* | 1 |
| | Texniki və təbiət elmləri liseyi – *Ziyatxanlı Murad Ratxan oğlu, Rzayev Elvin Elçin oğlu* | 2 |
| | Humanitar və təbiət-riyaziyyat təmayüllü "İstedad" liseyi – *Məmmədzadə Kamil Bağman oğlu* | 1 |
| | 32 saylı orta məktəb – *Abdullayev Kamran Elnur oğlu* | 1 |
| | **Naxçıvan MR Culfa rayonu** | **1 nəfər** |
| | Şəhid T. Qasımoğlu adına Yaycı kənd 1 saylı orta məktəbi – *Həşimli Faiq Həşim oğlu* | 1 |
| | **Abşeron rayonu** | **1 nəfər** |
| | Xırdalan şəhər 9 saylı orta məktəb – *Quliyev Elşən Nizami oğlu* | 1 |
| | **Yardımlı rayonu** | **1 nəfər** |
| | Çayüzü kənd orta məktəbi – *Əlizadə Elnur Əfqan oğlu* | 1 |
| | **Şəki rayonu** | **1 nəfər** |
| | 18 saylı şəhər orta məktəbi – *Qaffarlı Selcan Mənsur qızı* | 1 |
| | **Cəbrayıl rayonu** | **1 nəfər** |
| | Tatar kənd orta məktəbi – Saatlı, fin evi – *Mirişli Rauf Akif oğlu* | 1 |
| | **Göyçay rayonu** | **1 nəfər** |
| | E. Ələkbərov adına 2 saylı şəhər orta məktəb – *Mehdiyeva Vəfa Elman qızı* | 1 |

| QRUP | Biləsuvar rayonu | 1 nəfər |
|---|---|---|
| II | M. İbrahimov adına Biləsuvar lisey – məktəb kompleksi – *Rustamzadə Fərid Bəxtiyar oğlu* | 1 |
| | **Ağstafa rayonu** | **1 nəfər** |
| | Dağkəsəmən kənd 1 saylı orta məktəbi - *Ayralov Zaur Arif oğlu* | 1 |

| QRUP | Bakı şəhəri | 12 nəfər |
|---|---|---|
| III | 26 saylı orta məktəb – *Nəzərova Zəhra Xudaverdi qızı* | 1 |
| | 287 saylı "Zəkalar" liseyi – *Ələkbərli Əli Azər oğlu* | 1 |
| | 48 saylı orta məktəb – *Əsgərova Fatimə Vüqar qızı* | 1 |
| | 267 saylı orta məktəb – *Qəhrəmanova Aytac Möhsüm qızı* | 1 |
| | Bakı Avropa liseyi – *Həsənova Gülüsüm Ələddin qızı* | 1 |
| | 260 saylı orta məktəb – *Ağakişiyeva Zülfiyyə Elxan qızı* | 1 |
| | Bakı Türk liseyi ( BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) - *Baxşəliyeva Aydan Novruz qızı* | 1 |
| | İ.Əfəndiyev adına "Elitar" gimnaziya – *Əlizadə Zakir İlqar oğlu* | 1 |
| | 59 saylı orta məktəb – *Nəsirli Kifayət Rəfail qızı* | 1 |
| | 54 saylı orta məktəb – *Məmmədov Namiq Natiq oğlu* | 1 |
| | 238 saylı orta məktəb – *Yusifzadə Günay Tağı qızı* | 1 |
| | 207 saylı orta məktəb – *Ələkbərova Fidan Etibar qızı* | 1 |
| | **Sumqayıt şəhəri** | **1 nəfər** |
| | Sumqayıt Özəl Türk liseyi – *Hüseynov Ağamirzə Qaçay oğlu* | 1 |
| | **Ucar rayonu** | **1 nəfər** |
| | 1 saylı texniki və humanitar təmayüllü məktəb - lisey – *Məmmədli Səbinə Sahil qızı* | 1 |
| | **Goranboy rayonu** | **1 nəfər** |
| | Qatır Məmməd adına 2 saylı şəhər orta məktəbi – *Mustafayeva Səbinə Sərvər qızı* | 1 |
| | **Bərdə rayonu** | **1 nəfər** |
| | Akademik Z. Əliyeva adına Texniki təmayüllü məktəb - lisey – *İsmayılova Səbinə Vüqar qızı* | 1 |
| | **Şəki rayonu** | **1 nəfər** |
| | 7 saylı şəhər orta məktəbi – *Qasımov Nizami Eldar oğlu* | 1 |
| | **Daşkəsən rayonu** | **1 nəfər** |
| | Ş. Cavadov adına Təzəkənd kənd orta məktəbi – *Məmmədalıyev Teymur Yaqub oğlu* | 1 |
| | **Salyan rayonu** | **1 nəfər** |
| | 4 saylı şəhər orta məktəbi – *Dadaşzadə Xalıq Yusif oğlu* | 1 |
| | **İsmayıllı rayonu** | **1 nəfər** |
| | 5 saylı şəhər orta məktəbi – *Abbasova Ləman Ədalət qızı* | 1 |
| | **Yevlax rayonu** | **1 nəfər** |
| | 5 saylı şəhər orta məktəbi – *Zeynallı Aysel Fəzail qızı* | 1 |
| | **Cəlilabad rayonu** | **1 nəfər** |
| | N.Məmmədov adına Sabirabad kənd 1 saylı orta məktəbi – *Qasımov Əli Müşviq oğlu* | 1 |
| | **Ağdam rayonu** | **1 nəfər** |
| | 32 saylı orta məktəb – *Cəfərova Aytac Nayıb qızı* | 1 |
| | **Ağdaş rayonu** | **1 nəfər** |
| | M. İsayev adına şəhər orta məktəbi - *Novruzlu Günay Ramazan qızı* | 1 |
| | **Füzuli rayonu** | **1 nəfər** |
| | Qayıdış qəsəbə 1 saylı orta məktəbi – *Heydərova Gülşən Heydər qızı* | 1 |

| QRUP | Bakı şəhəri | 9 nəfər |
|---|---|---|
| IV | Bakı Türk liseyi ( BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) – *Alpaşayev Vüqar Kazım oğlu* | 1 |
| | 249 saylı orta məktəb – *Mahmudov Şəmisdan Akim oğlu* | 1 |
| | 320 saylı orta məktəb – *Həmidli Fərid Kamil oğlu* | 1 |
| | 175 saylı orta məktəb – *Qasımova Lamiyə Elman qızı* | 1 |
| | XXI əsr – Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi – *Süleymanova Afina Rasim qızı* | 1 |
| | 287 saylı "Zəkalar" liseyi – *Məmmədova Günel Murad qızı, Nağıyeva Arzu Qulu qızı* | 2 |
| | 312 saylı orta məktəb – *İsgəndərova İlahə Sahib qızı* | 1 |
| | 236 saylı orta məktəb – *Tağıyeva Təranə Şükür qızı* | 1 |
| | **Naxçıvan şəhəri** | **1 nəfər** |
| | M. T. Sidqi adına 4 saylı orta məktəb – *Qasımov Amil Mayis oğlu* | 1 |
| | **Sumqayıt şəhəri** | **2 nəfər** |
| | Humanitar və təbiət-riyaziyyat təmayüllü "İstedad" liseyi – *İmaməliyev Elnur Müşfiq oğlu, Əlizadə Fidan Rüfət qızı* | 2 |
| | **Mingəçevir şəhəri** | **1 nəfər** |
| | Təbiət - riyaziyyat və humanitar elmlər təmayüllü lisey – *Süleymanova Fəridə Azər qızı* | 1 |
| | **Ağdam rayonu** | **1 nəfər** |
| | Çəmənli kənd orta məktəbi – *Məmmədzadə İlkin Rəfael oğlu* | 1 |
| | **Ağsu rayonu** | **1 nəfər** |
| | 1 saylı şəhər orta məktəbi – *Qasımov Nicat Nazim oğlu* | 1 |
| | **Lənkəran rayonu** | **1 nəfər** |
| | 7 saylı şəhər orta məktəbi – *Xəlilov Oruc Şəmsəddin oğlu* | 1 |
| | **Şəki rayonu** | **1 nəfər** |
| | 5 saylı şəhər orta məktəbi – *Xurşudova Minayə İbrahim qızı* | 1 |
| | **İsmayıllı rayon** | **1 nəfər** |
| | 4 saylı şəhər orta məktəbi – *Qüdrətli Qəmər Əhməd qızı* | 1 |
| | **Biləsuvar rayonu** | **1 nəfər** |
| | M. İbrahimov adına Biləsuvar lisey – məktəb kompleksi – *Əzizzadə Nazim Mirzə oğlu* | 1 |
| | **Xaçmaz rayon** | **1 nəfər** |
| | İ. Qayıbov adına 3 saylı şəhər orta məktəbi – *Əsgərbəyli Aygün Əliağa qızı* | 1 |
| | **Astara rayonu** | **1 nəfər** |
| | N. Həsənov adına Kijəbə qəsəbə orta məktəbi – *Quliyev Fuad Firudin oğlu* | 1 |
| | **Bərdə rayonu** | **2 nəfər** |
| | Akademik Z. Əliyev adına Texniki təmayüllü məktəb - lisey – *Eminov Kənan Zabil oğlu* | 1 |
| | T. İsmayılov adına 1 saylı şəhər orta məktəbi – *Məhərrəmov Taleh Qardaşxan oğlu* | 1 |
| | **Şəmkir rayonu** | **1 nəfər** |
| | Əliyaqublu kənd orta məktəbi – *Novruzov Elmar Eldar oğlu* | 1 |
| | **Zaqatala rayonu** | **1 nəfər** |
| | Tala kənd 1 saylı orta məktəbi – *Ağabəyova Xanım Məmməd qızı* | 1 |
| | **Qazax rayonu** | **1 nəfər** |
| | V. Gösşüyev adına Çaylı kənd 1 saylı orta məktəbi – *Məmmədrzayeva Gülnar Ehtibar qızı* | 1 |

# QƏBUL İMTAHANLARINDA YÜKSƏK NƏTİCƏLƏR ƏLDƏ ETMİŞ GƏNCLƏR HAQQINDA MƏLUMAT

**Bu il respublikanın ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında 92 min 643 abituriyent iştirak etmişdir. Abituriyentlərdən 1727 nəfəri 600-baldan yuxarı nəticə göstərmişdir. Yüksək ballılar respublikanın, demək olar, bütün şəhər və rayonlarını, o cümlədən bəzi kənd məktəblərini təmsil edirlər. Yüksək nəticə göstərənlər I qrupda 488, II qrupda 435, III qrupda 401, IV qrupda 403 nəfərdir. 9 nəfər isə maksimal nəticə (700 bal) göstərmişdir. Onlardan 5-i I qrupun, 2-si II qrupun, 2-si isə IV qrupun abituriyentləridir.**

Yüksək bal toplamış gənclər Azərbaycan Respublikasının aşağıdakı ali məktəblərinə qəbul olmuşlar:

| № | Ali məktəb | Qəbul olunanların sayı | I | II | III | IV |
|---|---|---|---|---|---|---|
| 1 | Bakı Dövlət Universiteti | 227 (13.17%) | 62 (12.76%) | 17 (3.92%) | 145 (36.16%) | 3 (0.74%) |
| 2 | Azərbaycan Dövlət Neft Akademiyası | 126 (7.31%) | 126(25.93%) | 0 (0.0%) | 0 (0.0%) | 0 (0.0%) |
| 3 | Azərbaycan Texniki Universiteti | 4 (0.23%) | 4 (0.82%) | 0 (0.0%) | 0 (0.0%) | 0 (0.0%) |
| 4 | Azərbaycan Memarlıq və İnşaat Universiteti | 3 (0.17%) | 3 (0.62%) | 0 (0.0%) | 0 (0.0%) | 0 (0.0%) |
| 5 | Azərbaycan Tibb Universiteti | 379 (21.98%) | 0 (0.0%) | 0 (0.0%) | 0 (0.0%) | 379 (94.04%) |
| 6 | Azərbaycan Dövlət Pedaqoji Universiteti | 1 (0.06%) | 1 (0.21%) | 0 (0.0%) | 0 (0.0%) | 0 (0.0%) |
| 7 | Azərbaycan Dövlət İqtisad Universiteti | 93 (5.39%) | 1 (0.21%) | 92 (21.20%) | 0 (0.0%) | 0 (0.0%) |
| 8 | Azərbaycan Dillər Universiteti | 92 (5.34%) | 0 (0.0%) | 1 (0.23%) | 91 (22.69%) | 0 (0.0%) |
| 9 | Azərbaycan Müəllimlər İnstitutu | 1 (0.06%) | 0 (0.0%) | 0 (0.0%) | 1 (0.25%) | 0 (0.0%) |
| 10 | Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası | 212 (12.30%) | 25 (5.14%) | 124 (28.57%) | 63 (15.71%) | 0 (0.0%) |
| 11 | "ADA" Universiteti | 201 (11.66%) | 30 (6.17%) | 130 (29.95%) | 41 (10.22%) | 0 (0.0%) |
| 12 | Azərbaycan Turizm İnstitutu | 3 (0.17%) | 0 (0.0%) | 1 (0.23%) | 2 (0.50%) | 0 (0.0%) |
| 13 | Milli Aviasiya Akademiyası | 1 (0.06%) | 1 (0.21%) | 0 (0.0%) | 0 (0.0%) | 0 (0.0%) |
| 14 | Bakı Ali Neft Məktəbi | 120 (6.96%) | 120 (24.69%) | 0 (0.0%) | 0 (0.0%) | 0 |
| 15 | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası | 14 (0.81%) | 0 (0.0%) | 9 (2.07%) | 5 (1.25%) | 0 (0.0%) |
| 16 | Naxçıvan Dövlət Universiteti | 35 (2.03%) | 2 (0.41%) | 2 (0.46%) | 17 (4.24%) | 14 (3.47%) |
| 17 | Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.) | 3 (0.17%) | 1 (0.21%) | 1 (0.23%) | 0 (0.0%) | 1 (0.25%) |
| 18 | Gəncə Dövlət Universiteti | 6 (0.35%) | 1 (0.21%) | 1 (0.23%) | 4 (1.00%) | 0 (0.0%) |
| 19 | Sumqayıt Dövlət Universiteti | 1 (0.06%) | 0 (0.0%) | 0 (0.0%) | 1 (0.25%) | 0 (0.0%) |
| 20 | Lənkəran Dövlət Universiteti | 1 (0.06%) | 1 (0.21%) | 0 (0.0%) | 0 (0.0%) | 0 (0.0%) |
| 21 | M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı | 3 (0.17%) | 2 (0.41%) | 1 (0.23%) | 0 (0.0%) | 0 (0.0%) |
| 22 | Xəzər Universiteti | 12 (0.70%) | 12 (2.47%) | 0 (0.0%) | 0 (0.0%) | 0 (0.0%) |
| 23 | "Qafqaz" Universiteti | 146 (8.47%) | 90 (18.52%) | 55 (12.67%) | 0 (0.0%) | 1 (0.25%) |
| 24 | Xüsusi təyinatlı ali təhsil müəssisələri | 35 (2.03%) | 4 (0.82%) | 0 (0.0%) | 31 (7.73%) | 0 (0.0%) |
| 25 | Türkiyənin ali təhsil müəssisələri | 5 (0.29%) | 0 (0.0%) | 0 (0.0%) | 0 (0.0%) | 5 (1.24%) |
|  | Cəmi | 1724 (100.0%) | 486 (100.0%) | 434 (100.0%) | 401 (100.0%) | 403 (100.0%) |

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARINDA YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏRİN BÖLGƏLƏR ÜZRƏ SAYI

| № | BÖLGƏ | Bölgə üzrə abituriyentlərin ümumi sayı | 500-700 intervalında bal toplayanların sayı | 600-700 intervalında bal toplayanların sayı | 500-dən yuxarı bal toplayanların faizi (bölgə üzrə abituriyentlərin ümumi sayına nəzərən) |
|---|---|---|---|---|---|
| 1 | Bakı şəhəri | 31089 | 2366 | 774 | 7.61 |
| 2 | Sumqayıt şəhəri | 4565 | 365 | 137 | 8.00 |
| 3 | Gəncə şəhəri | 3693 | 207 | 57 | 5.61 |
| 4 | Abşeron rayonu | 2107 | 102 | 30 | 4.84 |
| 5 | Şəki rayonu | 1830 | 133 | 41 | 7.27 |
| 6 | Lənkəran rayonu | 1616 | 83 | 32 | 5.14 |
| 7 | Şəmkir rayonu | 1540 | 70 | 15 | 4.55 |
| 8 | Naxçıvan şəhəri | 1519 | 118 | 44 | 7.77 |
| 9 | Quba rayonu | 1435 | 44 | 6 | 3.07 |
| 10 | Tovuz rayonu | 1319 | 85 | 22 | 6.44 |
| 11 | Cəlilabad rayonu | 1289 | 43 | 14 | 3.34 |
| 12 | Xaçmaz rayonu | 1285 | 29 | 11 | 2.26 |
| 13 | Mingəçevir şəhəri | 1215 | 85 | 18 | 7.00 |
| 14 | Bərdə rayonu | 1196 | 67 | 22 | 5.60 |
| 15 | Qəbələ rayonu | 1194 | 110 | 27 | 9.21 |
| 16 | Ağdam rayonu | 1167 | 51 | 12 | 4.37 |
| 17 | Naxçıvan MR Babək rayonu | 1072 | 45 | 14 | 4.20 |
| 18 | Masallı rayonu | 1056 | 51 | 12 | 4.83 |
| 19 | Naxçıvan MR Şərur rayonu | 1030 | 64 | 27 | 6.21 |
| 20 | Yevlax rayonu | 969 | 29 | 1 | 2.99 |
| 21 | Goranboy rayonu | 957 | 42 | 13 | 4.39 |
| 22 | Füzuli rayonu | 939 | 30 | 6 | 3.19 |
| 23 | Ağcabədi rayonu | 924 | 37 | 13 | 4.00 |
| 24 | İsmayıllı rayonu | 890 | 51 | 20 | 5.73 |
| 25 | İmişli rayonu | 888 | 29 | 7 | 3.27 |
| 26 | Salyan rayonu | 883 | 66 | 18 | 7.47 |
| 27 | Zaqatala rayonu | 865 | 50 | 18 | 5.78 |
| 28 | Göyçay rayonu | 859 | 55 | 12 | 6.40 |
| 29 | Ağdaş rayonu | 853 | 45 | 13 | 5.28 |
| 30 | Kəlbəcər rayonu | 851 | 43 | 5 | 5.05 |
| 31 | Beyləqan rayonu | 846 | 28 | 7 | 3.31 |
| 32 | Sabirabad rayonu | 835 | 41 | 9 | 4.91 |
| 33 | Şirvan rayonu | 829 | 38 | 16 | 4.58 |

| № | B Ö L G Ə | Bölgə üzrə abituriyentlərin ümumi sayı | 500-700 intervalında bal toplayanların sayı | 600-700 intervalında bal toplayanların sayı | 500-dən yuxarı bal toplayanların faizi (bölgə üzrə abituriyentlərin ümumi sayına nəzərən) |
|---|---|---|---|---|---|
| 34 | Laçın rayonu | 825 | 19 | 8 | 2.30 |
| 35 | Qazax rayonu | 792 | 44 | 7 | 5.56 |
| 36 | Biləsuvar rayonu | 753 | 60 | 21 | 7.97 |
| 37 | Qusar rayonu | 741 | 18 | 5 | 2.43 |
| 38 | Cəbrayıl rayonu | 708 | 32 | 11 | 4.52 |
| 39 | Kürdəmir rayonu | 705 | 29 | 12 | 4.11 |
| 40 | Astara rayonu | 673 | 20 | 4 | 2.97 |
| 41 | Ağstafa rayonu | 671 | 53 | 16 | 7.90 |
| 42 | Göygöl rayonu | 665 | 28 | 6 | 4.21 |
| 43 | Şamaxı rayonu | 663 | 21 | 8 | 3.17 |
| 44 | Tərtər rayonu | 636 | 22 | 6 | 3.46 |
| 45 | Ucar rayonu | 594 | 25 | 8 | 4.21 |
| 46 | Balakən rayonu | 578 | 31 | 8 | 5.36 |
| 47 | Gədəbəy rayonu | 559 | 22 | 7 | 3.94 |
| 48 | Naxçıvan MR Culfa rayonu | 535 | 31 | 12 | 5.79 |
| 49 | Neftçala rayonu | 528 | 42 | 8 | 7.95 |
| 50 | Oğuz rayonu | 526 | 30 | 9 | 5.70 |
| 51 | Qubadlı rayonu | 519 | 21 | 8 | 4.05 |
| 52 | Yardımlı rayonu | 511 | 16 | 5 | 3.13 |
| 53 | Saatlı rayonu | 506 | 20 | 5 | 3.95 |
| 54 | Samux rayonu | 492 | 19 | 3 | 3.86 |
| 55 | Qax rayonu | 489 | 50 | 19 | 10.22 |
| 56 | Lerik rayonu | 480 | 14 | 4 | 2.92 |
| 57 | Ağsu rayonu | 472 | 14 | 5 | 2.97 |
| 58 | Şabran rayonu | 467 | 12 | 2 | 2.57 |
| 59 | Zəngilan rayonu | 445 | 8 | 0 | 1.80 |
| 60 | Naxçıvan MR Ordubad rayonu | 443 | 38 | 13 | 8.58 |
| 61 | Siyəzən rayonu | 402 | 25 | 8 | 6.22 |
| 62 | Zərdab rayonu | 387 | 14 | 4 | 3.62 |
| 63 | Hacıqabul rayonu | 356 | 11 | 4 | 3.09 |
| 64 | Naxçıvan MR Kəngərli rayonu | 333 | 13 | 1 | 3.90 |
| 65 | Naxçıvan MR Şahbuz rayonu | 308 | 20 | 4 | 6.49 |
| 66 | Qobustan rayonu | 278 | 10 | 1 | 3.60 |
| 67 | Daşkəsən rayonu | 161 | 5 | 3 | 3.11 |
| 68 | Şuşa rayonu | 159 | 8 | 3 | 5.03 |
| 69 | Xızı rayonu | 129 | 4 | 2 | 3.10 |
| 70 | Naxçıvan MR Sədərək rayonu | 121 | 3 | 1 | 2.48 |
| 71 | Xarici dövlətlər | 118 | 2 | 1 | 1.69 |
| 72 | Xocalı rayonu | 115 | 1 | 0 | 0.87 |
| 73 | Xocavənd rayonu | 111 | 5 | 0 | 4.50 |
| 74 | Naftalan şəhəri | 83 | 3 | 2 | 3.61 |
|  | Respublika üzrə cəmi: |  | 5565 | 1727 |  |

# ABİTURİYENTLƏRİNİN SAYINA NƏZƏRƏN YÜKSƏK BALLILARININ FAİZİ DAHA ÇOX OLAN TƏHSİL MÜƏSSİSƏLƏRİ (2014-cü ilin məzunları)*

| № | Məktəb | Məktəb üzrəMəktəb üzrə abituriyentlərin ümumi sayı | 600-dən yuxarı bal toplayan abituriyentlərin sayı | 600-dən yuxarı ballıların faizi (məktəb üzrə abituriyentlərin ümumi sayına nəzərən) |
|---|---|---|---|---|
| 1 | Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) | 101 | 62 | 61.39 |
| 2 | Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya | 39 | 20 | 51.28 |
| 3 | Sumqayıt şəhəri "İstedad" liseyi | 36 | 18 | 50.00 |
| 4 | Sumqayıt şəhəri Texniki və təbiət elmləri liseyi | 47 | 22 | 46.81 |
| 5 | Naxçıvan türk liseyi | 35 | 13 | 37.14 |
| 6 | BDU-nun nəzdində "Gənc istedadlar" liseyi | 37 | 13 | 35.14 |
| 7 | Biləsuvar rayonu M. İbrahimov adına Biləsuvar lisey-məktəb kompleksi | 40 | 14 | 35.00 |
| 8 | Şərur türk liseyi | 35 | 11 | 31.43 |
| 9 | Akademik Z.Əliyeva adına lisey | 179 | 54 | 30.17 |
| 10 | Bakı şəhəri 287 saylı "Zəkalar" liseyi | 63 | 19 | 30.16 |
| 11 | Ordubad qız liseyi | 25 | 6 | 24.00 |
| 12 | Bakı Özəl türk liseyinin Lənkəran filialı | 50 | 12 | 24.00 |
| 13 | Bakı şəhəri "Elitar" gimnaziya | 43 | 9 | 20.93 |
| 14 | Naxçıvan şəhəri 705 saylı hərbi hissənin 1 saylı orta məktəbi | 35 | 7 | 20.00 |
| 15 | Sumqayıt Özəl türk liseyi | 41 | 8 | 19.51 |
| 16 | Bakı şəhəri 260 saylı orta məktəb | 33 | 6 | 18.18 |
| 17 | Gəncə Azərbaycan-Türkiyə özəl liseyi | 52 | 9 | 17.31 |
| 18 | Bərdə rayonu Texniki təmayüllü məktəb-lisey | 71 | 11 | 15.49 |
| 19 | Bakı özəl türk liseyinin "Dədə Qorqud" filialı | 52 | 8 | 15.38 |
| 20 | Ağdaş rayonu Texniki, təbiət və humanitar təmayüllü internat tipli gimnaziya | 26 | 4 | 15.38 |
| 21 | Abşeron rayonu Digah qəsəbə orta məktəbi | 20 | 3 | 15.00 |
| 22 | Bakı Özəl türk liseyi | 68 | 10 | 14.71 |
| 23 | 289 saylı orta məktəb -"Zəngi" liseyi | 105 | 15 | 14.29 |
| 24 | Naxçıvan şəhəri Heydər Əliyev adına məktəb | 45 | 6 | 13.33 |
| 25 | Heydər Əliyev adına lisey | 83 | 11 | 13.25 |

| № | Məktəb | Məktəb üzrə abituriyentlərin ümumi sayı | 600-dən yuxarı bal toplayan abituriyentlərin sayı | 600-dən yuxarı ballıların faizi (məktəb üzrə abituriyentlərin ümumi sayına nəzərən) |
|---|---|---|---|---|
| 26 | Ağstafa rayonu Dağkəsəmən kənd 1 saylı orta məktəbi | 31 | 4 | 12.90 |
| 27 | Şəki rayonu 5 saylı şəhər orta məktəbi | 47 | 6 | 12.77 |
| 28 | Qax rayonu 2 saylı şəhər orta məktəbi | 57 | 7 | 12.28 |
| 29 | Şəki rayonu 18 saylı şəhər orta məktəbi | 49 | 6 | 12.24 |
| 30 | Şəki Azərbaycan-Türkiyə özəl liseyi | 25 | 3 | 12.00 |
| 31 | Qax rayonu 5 saylı şəhər orta məktəbi | 34 | 4 | 11.76 |
| 32 | İsmayıllı rayonu 5 saylı şəhər orta məktəbi | 69 | 8 | 11.59 |
| 33 | Bakı şəhəri 34 saylı orta məktəb | 35 | 4 | 11.43 |
| 34 | Xarici dillər təmayüllü gimnaziya | 64 | 7 | 10.94 |
| 35 | Bakı şəhəri 72 saylı məktəb-lisey | 46 | 5 | 10.87 |
| 36 | Bakı şəhəri 138 saylı orta məktəb | 74 | 8 | 10.81 |
| 37 | Şəki rayonu Şəhər fizika-riyaziyyat və humanitar təmayüllü lisey | 28 | 3 | 10.71 |
| 38 | Balakən rayonu Texniki Humanitar təmayüllü lisey | 56 | 6 | 10.71 |
| 39 | Bakı Özəl türk liseyinin Ağdaş filialı | 28 | 3 | 10.71 |
| 40 | "İntellekt" məktəb-liseyi | 58 | 6 | 10.34 |
| 41 | Goranboy rayonu Safıkürd kənd orta məktəbi | 29 | 3 | 10.34 |
| 42 | Bakı Avropa liseyi | 60 | 6 | 10.00 |
| 43 | XXI əsr - Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi | 20 | 2 | 10.00 |
| 44 | Bakı şəhəri 202 saylı orta məktəb | 40 | 4 | 10.00 |
| 45 | Babək rayonu Didivar kənd orta məktəbi | 30 | 3 | 10.00 |
| 46 | Culfa rayonu Bənəniyar kənd orta məktəbi | 30 | 3 | 10.00 |
| 47 | Şərur rayonu Tumaslı kənd orta məktəbi | 20 | 2 | 10.00 |
| 48 | Qəbələ rayonu Bunud kənd orta məktəbi | 20 | 2 | 10.00 |

*** Siyahıya abituriyentlərinin sayı 20-dən az olmayan təhsil müəssisələri daxil edilmişdir.**

# ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ GƏNCLƏRLƏ MÜSAHİBƏLƏR

**Ali məktəblərə qəbul imtahanlarında yüksək nəticə göstərənlərin təcrübəsi hər zaman ictimaiyyətin diqqət mərkəzində olan məsələlərdəndir. TQDK bunu nəzərə alaraq əvvəlki illərdə olduğu kimi cari ildə də hər ixtisas qrupu üzrə imtahanların nəticələrini açıqladıqca yüksək nəticə qazanan abituriyentlərin, eləcə də maksimal bal toplayanların sayı barədə də ictimaiyyətə geniş məlumat verib. Bildirilib ki, qəbul imtahanlarında 9 nəfər maksimal nəticə göstərib. I ixtisas qrupunda 5 nəfər, II ixtisas qrupunda 2 nəfər, IV ixtisas qrupunda 2 nəfər 700 bal toplayıb. III qrupda isə 2 nəfər ən yüksək nəticə (695 bal) əldə edib.**

**Jurnalımız da öz ənənəsinə sadiq qalaraq ən yüksək nəticələr əldə edən həmin abituriyentləri cəmiyyətə daha yaxından tanıtmaq, onların təcrübələrini öyrənmək və yaymaq məqsədilə onlar haqqında məqalə və müsahibələr hazırlayıb. Həmin materialları sizə təqdim edirik.**



***Könül Yusif qızı Qurbanlı Bakı şəhəri Nizami rayonu "Zəngi" liseyini bitirib. I ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq "ADA" Universitetinin "İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi" ixtisasına qəbul olub. Prezident təqaüdçüsüdür.***

***- Qəbul imtahanında 700 bal toplayacağına əvvəlcədən inanırdın, yoxsa bu sənin üçün gözlənilməz oldu?***

- Daha əvvəl bir neçə sınaq imtahanında 700 bal toplamışdım. Çox vaxt 690-695 bal toplayırdım. Amma məqsədim həmişə 700 bal toplamaq olub. Tam əmin olmasam da, hesab edirdim ki, buna nail ola bilərəm. Valideynlərim və müəllimlərim də buna inanırdılar.

***- Qəbula hazırlaşarkən əsas motivasiyan nə olub?***

- Müəllimlərimin, valideynlərimin mənə olan inamını doğrultmaq və yaxşı ali təhsil almaq arzusu.

***- Qazandığın uğurda test tapşırıqları ilə işləməyin nə kimi rolu olub?***

- Əlbəttə, uğurumda testlərlə işləməyin mühüm rolu olub. Ancaq ən əsas amil istər məktəb dərslərində, istərsə də qəbula hazırlıqda dərsliklərdəki materialları mükəmməl öyrənməkdir. Xüsusilə də gərək əldə etdiyin bilikləri tətbiq etmək bacarığına yiyələnəsən.

***- Səncə, abituriyentin qəbulda yüksək nəticə qazanması daha çox müəllimdən, yoxsa abituriyentin özündən asılıdır?***

- Məncə, hər ikisindən eyni dərəcədə asılıdır.

***- Niyə məhz "ADA" Universitetini seçdin?***

- "ADA" Universitetini yüksəksəviyyəli ali təhsil almaq və xaricə çıxış imkanlarına görə seçmişəm.

***- Uğuruna görə özünü kimə borclu hesab edirsən?***

- Özümü müəllimlərimə, xüsusilə də sinif rəhbərim, eyni zamanda riyaziyyat müəllimim Rövşən müəllimə borclu sayıram.

***- Məqsədə çatmağın sirri nədədir?***

- Məncə, məqsədə çatmağın sirri çox çalışmaq, iradəli və qətiyyətli olmaqdır.

***- İxtisasına tam yiyələndikdən sonrakı planların necədir?***

- Niyyətim yaxşı mütəxəssis və vətənimə xeyirli vətəndaş olmaqdır. Fikrimcə, insanın hansı sahəni seçməsinin elə bir fərqi yoxdur. Başlıcası odur ki, insanlara, ölkənə gərəkli olasan.

***- Minlərlə şagird var ki, qəbul imtahanlarına hazırlıq zamanı çox çalışır, lakin yüksək nəticə əldə edə bilmir. Səncə, bunun səbəbi nədir?***

- Razıyam. Mənim də yoldaşlarımın arasında elələri var idi ki, bəlkə, məndən də çox çalışırdılar, ancaq yüksək bal toplaya bilmədilər. Hesab edirəm ki, çalışqanlıq, zəhmətsevərlik bəhrəsiz qala bilməz, ancaq görünür, ən yüksək nəticə qazanmaq üçün bu, kifayət deyil. Şagirdin zehninin, qavrama qabiliyyətinin iti olması, hafizəsinin möhkəm olması çox vacib şərtdir.

***- Qəbula hazırlaşan abituriyentlərə yüksək nəticə göstərmək üçün nə məsləhət görərdin?***

- Tövsiyəm budur ki, hər şeydən əvvəl, aşağı siniflərdən başlayaraq dərslərini mükəmməl, dərindən öyrənsinlər. Bilsinlər ki, hər şeyi son tədris ilində repetitor xidmətindən istifadə etməklə öyrənmək mümkün deyil. Fikrimcə, məktəbdə öyrənilən bilik daha möhkəm olur. Onbirillik proqramı son iki ildə yüksək səviyyədə mənimsəmək çətin məsələdir.

***- Sən neçə il repetitorla hazırlaşmısan?***

- Məktəb dərslərindən sonra iki il hazırlıq kursuna getmişəm. Ancaq hesab edirəm ki, müvəffəqiyyətimdə müstəqil çalışmalarımın, məktəbdə əldə etdiyim baza biliklərinin rolu daha böyükdür.

***- Səncə, hazırlıq kursunda məşğul olmasaydın, 700 bal toplaya bilərdin?***

- Bu suala birmənalı "hə", yaxud "yox" cavabını verməyə çətinlik çəkirəm. Əslində, məktəbdə dərslər yaxşı keçilsə, repetitor hazırlığına ehtiyac olmaz. Ancaq hazırkı şəraitdə ən yüksək nəticə qazanmaq üçün əlavə hazırlığa getmək zərurəti yaranır. Bu səbəbdən mən də hazırlıq kursunda repetitor xidmətindən yararlanmışam.

***- Təhsil sistemində nəyin dəyişilməsini istərdin?***

- Məktəbdə təhsilin səviyyəsini, keyfiyyətini qaldırmaq lazımdır. Bunun bir sıra yolları vardır. Müəllimlərin maaşının kifayət qədər artırılması da bu işdə önəmli rol oynayar.

***Müsahibəni apardı: Şəbnəm Mahmudova***



***İbrahimov Eltun Nazim oğlu 2003-cü ildə Zəngilan rayonu 34 saylı tam orta məktəbə daxil olub. 2-ci sinifdən 7-ci sinifə qədər təhsilini Bakı şəhəri, Nizami rayonu Kamil Eyyubov adına 12 saylı tam orta məktəbdə davam etdirib. 8-ci sinifdən isə Bakı şəhər kimya-biologiya təmayüllü liseydə oxuyub. 2014-cü ildə bu liseyi bitirib. Ailədə 5 nəfərdilər: anası, atası, bacısı, qardaşı və özü. Atası "Bakıelektrik" ASC-də qaynaqçı, anası evdar qadın, qardaşı Sumqayıt Dövlət Universitetinin, bacısı isə Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbəsidir. Prezident təqaüdçüsüdür.***

Eltungilin ailəsi Ağdam rayonundan məcburi köçkündür və Bakıdakı yataqxanalardan birində məskunlaşıb. O, bu yataqxanada böyüyüb. Şəraitsizlik onun yaxşı təhsil almasına və yüksək səviyyədə qəbul imtahanına hazırlaşmasına mane ola bilməyib. I ixtisas qrupu üzrə imtahanda 700 bal toplayaraq Bakı Ali Neft Məktəbinin "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" fakültəsinə qəbul olub.

***- Qəbul imtahanında yüksək nəticə əldə etmək üçün abituriyentin hansı fərdi keyfiyyətləri olmalıdır?***

- Yüksək çalışqanlıq, möhkəm yaddaş, analitik düşünmə tərzi, özünəinam, səbr və iradə. Bu keyfiyyətlərə malik olan hər bir gənc qəbul imtahanında istədiyi nəticəni əldə edə bilər.

***- Sən öz uğurunun başlıca səbəbini nədə görürsən?***

- Sadaladığım fərdi keyfiyyətlər az-çox dərəcədə məndə də var və mən bunların, xüsusilə də gərgin çalışmalarım və özümə inamım sayəsində məqsədimə çatmışam. Özünə inamın olmasa, yüksək bal toplaya bilməzsən. Sınaqlarda 700 bal toplamasam da, 687 baladək nəticə göstərmişəm.

***- Yüksək bal toplayacağına əminliyin nə dərəcədə idi?***

- Məktəbdə oxuyarkən hər zaman yüksək nəticələr göstərirdim. Qəbuldan öncə keçirilən sınaq imtahanlarında da yaxşı nəticələr əldə edirdim. Ona görə qəbul imtahanında 700 bal toplayacağıma öncədən əmin idim. Düzdür, az da olsa tərəddüdlərim var idi. Amma inam, əminlik qəbul imtahanının yekununda öz sözünü dedi.

***- Hazırlıq zamanı hansı metoddan istifadə edirdin və dərslər arasında vaxt bölgüsünü necə nizamlayırdın?***

- Məktəb dərsləri və hazırlıq müddətində ciddi sistemlilik və vaxt bölgüsü əsasında çalışırdım. Buna görə də oxumaq, çalışmaq mənim üçün çətinlik, gərginlik yaratmırdı.

***- Məktəb təhsilindən razısanmı? Müəllimlərinin, dostlarının, sinif yoldaşlarının sənə dəstəyi necə idi?***

- Məktəb təhsilini heç bir əlavə hazırlıq əvəz edə bilməz. İlk dəfə qələm tutmağı, yazı yazmağı bizə müəllimlər öyrədir. Son oxuduğum məktəbdə – liseydə bütün müəllimlərimin, xüsusən Azərbaycan dili müəllimimin mənə dəstəyi çox olub. O, mənimlə psixoloji söhbətlər aparır, mənə həyəcandan uzaq olmağı təlqin edirdi. Dostlarım, sinif yoldaşlarım da mənə olan inamları ilə məni ruhlandırırdılar.

***- Neçə il hazırlığa getmisən? Məktəbdə yaxşı oxuduğun halda əlavə hazırlıq keçməyə nə ehtiyac var idi? Ümumiyyətlə, repetitor yanına getmək abituriyentə əlavə nələri öyrədir?***

- Yüksək nəticəyə nail olmağımın əsas səbəbini repetitor yanına getməkdə deyil, məktəbə qədəm qoyduğu gündən onu bitirənə qədər gündəlik dərslərə məsuliyyətlə hazırlaşmaqda görürürəm. Qəbul imtahanına düşən suallar 11 il ərzində məktəbdə də keçilir. Mən yalnız sonuncu bir ili repetitor yanına getmişəm. Repetitor xidmətindən istifadə etmək oxuduqlarını sistemləşdirmək deməkdir.

***- 700 ballıq nəticə göstərmək bu müddətdə səni nələrdən məhrum edib?***

- Məhrum olmaq demək düzgün olmaz. Sadəcə, əlavə məşğuliyyətlərə bir az fasilə verdim, yəni əyləncə, dostlarla bir yerdə olmaq, sosial şəbəkələr və sair əlavə məşğuliyyətlərdən uzaq oldum.

***- Hazırlıq müddətində TQDK-nın nəşr etdiyi vəsaitlərdən, test kitablarından yararlanmısan?***

- Hazırlıq müddətində mütəmadi olaraq TQDK-nın məlumatlarını izləyir, test topluları və vəsaitlərindən istifadə edir, "Abituriyent"in saylarını oxuyurdum. Yüksək nəticə əldə etməyimdə onların da müəyyən rolu olub. Buna görə TQDK-ya və "Abituriyent" jurnalı redaksiyasına minnətdarlığımı bildirirəm.

***- Yüksək bal toplayan abituriyent kimi səni digər tərəfdən də tanımaq istəyirik. Əlavə məşğuliyyətin, xobbin nədən ibarətdir?***

- Əlavə məşğuliyyətim futbol oynamaq, idmanla məşğul olmaq, sosial şəbəkələrdən məlumat toplamaqdır. Boş vaxtlarımda həm də futbol oyunlarını izləməyə üstünlük verirəm.

***- Ədəbiyyata, musiqiyə münasibətin necədir?***

- Musiqiyə, ədəbiyyata çox marağım var, boş vaxtlarımda mütaliə ilə məşğul oluram. Azərbaycan ədəbiyyatında sevdiyim sima Cəlil Məmmədquluzadə, dünya ədəbiyyatında isə Jül Verndir.

***- Öz gələcəyini necə görürsən?***

- Gələcəkdə özümü Vətənimə, xalqıma yararlı bir mütəxəssis kimi görürəm.

***- Gələcək abituriyentlərə tövsiyən?***

- Özlərinə, yüksək nəticə toplayacaqlarına inansınlar. İstəklərinə nail olmaq üçün var gücləri ilə çalışsınlar. Bilsinlər ki, çəkilən zəhmət heç vaxt hədər getmir.

*Müsahibələri apardı: Könül Cəfərova*



***Bu il I ixtisas qrupu üzrə qəbul imtahanında maksimal nəticə (700 bal) əldə edən abituriyentlərdən biri də Məmməd Hacılıdır. O, 11 illik təhsili müddətində 3 məktəb dəyişib. I sinfi Zəngilan qaçqın məktəbində, II-VI sinifləri Heydər Əliyev adına liseydə, VII-XI sinifləri isə Bakı özəl türk liseyinin "Dədə Qorqud" filialında oxuyub.***

***Ailələri 4 nəfərdən ibarətdir: anası, atası, bacısı və özü. Məmmədin bacısı Heydər Əliyev adına liseyin 10-cu sinfində oxuyur, atası Azərbaycan Respublikası Dövlət Neft Şirkətində çalışır, anası isə evdar qadındır. Məmməd Hacılı Qafqaz Universitetinin "Kompüter mühəndisliyi" ixtisasına qəbul olub. Prezident təqaüdçüsüdür.***

***– Liseydəki təhsil mühiti necə idi? Hansı fənlərə daha çox maraq göstərirdin?***

- Liseyimizdə təhsil şəraiti çox yaxşı qurulmuşdu. Dərslər yüksək səviyyədə keçilirdi, müəllimlərimiz yüksək hazırlıqlı idi. Bunun da şagirdlərin ali məktəbə qəbula hazırlaşmasına böyük köməyi oldu. Liseyimizin digər məktəblərdən fərqinə gəlincə, qeyd edim ki, əsas fərq təhsildəki mühitlə bağlıdır. Müəllimlərlə səmimi münasibətimiz vardı, istədiyimiz sualları onlardan soruşub cavab ala bilirdik. Dərslərin çoxu ingilis dilində tədris olunurdu. VII-IX siniflərdən məndə dəqiq fənlərə böyük maraq yaranmışdı. IX-XI siniflərdə I ixtisas qrupu üzrə qəbul imtahanına düşən fənlərə daha çox vaxt ayırırdım. Odur ki, bu qrup üzrə fənləri yaxşı bildiyimdən qəbula hazırlaşmaq mənə çətin olmadı.

– Söhbət zamanı məlum oldu ki, Məmməd heç bir hazırlıq kursuna, repetitor yanına getmədən müstəqil surətdə hazırlaşmaq hesabına yüksək nəticə əldə edib. Odur ki, sual yarandı:

***– Necə oldu ki, repetitorla hazırlaşmadan 700 balı toplaya bildin?***

- Bəli, əlavə hazırlığa, repetitor yanına getmədən, özüm ciddi şəkildə hazırlaşaraq bu nəticəni əldə etdim. Liseyimizdə dərslər yüksək səviyyədə keçildiyi üçün repetitor xidmətindən istifadə etməklə hazırlaşmağa ehtiyac olmayıb. Son iki ildə özüm müstəqil şəkildə ciddi hazırlaşdım, heç bir əlavə hazırlığa getmədim. Qarşıma məqsəd qoydum. İnamım və ciddi hazırlaşmağım sayəsində bu nəticəni qazandım.

***– Sənin fikrincə, maksimal nəticəni əldə etmək üçün abituriyent hansı keyfiyyətlərə malik olmalıdır?***

- Qeyri-təvazökar təsir bağışlasa da, məndə olan bir fərqli cəhəti diqqətə çatdırım. Test tapşırıqlarını sürətlə həll edirəm. Qəbul imtahanında bütün test suallarını 1 saat 10 dəqiqəyə cavablandırdım. Sonradan onları daha diqqətlə oxuyub yoxladım. Sınaq imtahanında isə bütün sualları 40-50 dəqiqəyə həll edib qurtarır, sonra yoxlamaya keçirdim. Fikrimcə, imtahan tapşırıqlarını həll edərkən sürətli və diqqətli olmaq lazımdır. İkisi birlikdə olarsa, nəticə də yaxşı olar.

***- Bəzən deyirlər ki, test suallarını cavablandırarkən tələsmək, sürətli olmaq lazım deyil. Tələskənlik nəticəsində yanlış cavablar çox olur.***

- Tələsmək və sürətli olmaq başqa-başqa şeylərdir. Tələskənlik testlərin üzərindən necə gəldi keçməkdir. Amma sürətli olmaq sualı düz və tez işləməkdir. Məktəbdə də verilən tapşırıqları o biri uşaqlara nisbətən tez işləyirdim. Onlar 200-300 test işlədikləri halda, mən 500-600 test işləyirdim. Bu da yüksək nəticə əldə etməyimə imkan yaratdı.

***- Sınaq imtahanlarında nəticələrin necə olub? Qəbul imtahanında yüksək bal toplayacağına özün və yaxın ətrafın inanırdımı?***

- Qəbul imtahanından öncə keçirilən bütün sınaq imtahanlarında iştirak etmişəm, onların hamısında nəticələrim yüksək olub. Sonuncu sınaq imtahanında isə 695 bal toplamışdım. Bundan sonra qəbul imtahanında yüksək bal toplayacağıma inamım daha da artdı. Yaxın ətrafımda olan insanlar da mənim yüksək nəticə əldə edəcəyimə inanırdı. Onu da deyim ki, sınaq imtahanlarının hamısında iştirak etdiyimdən qəbul imtahanında heç bir həyəcanım yox idi. Qəbul imtahanı sanki əvvəl getdiyim sınaq imtahanlarından fərqlənmirdi. Halbuki mənimlə eyni otaqda imtahan verən abituriyentlərin bəziləri həyəcandan titrəyirdi. Mən isə sualları nə qədər sürətli həll edirdimsə, bir o qədər də sakit və diqqətli idim.

***- Qəbul kampaniyası dövründə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının vəsaitlərindən, tövsiyələrindən istifadə edirdin?***

– Bu dövrdə TQDK-nın, əsasən, 3 fənn - riyaziyyat, fizika və kimya üzrə nəşr etdiyi test bankı toplularından, siniflər üzrə test kitablarından və digər vəsaitlərindən istifadə etmişəm. “Abituriyent” jurnallarında verilən məlumatlarla da mütəmadi tanış olurdum.

***- Hazırlıq prosesində vaxtını necə bölürdün? Gününün neçə saatını oxumağa sərf edirdin?***

- Mən dərslikləri öyrənməklə bərabər testlərlə işləməyə çox vaxt ayırırdım. Məktəb dövründə dərslərimi yaxşı oxuduğum üçün qəbula hazırlaşarkən xüsusi çətinlik çəkmədim. Əsas vaxtımı testlər üzərində işləməyə sərf edirdim. Kimya və Azərbaycan dili fənlərini öyrənməyə də çox vaxt ayırırdım. Gün ərzində dərslərdən başqa bəzi məşğuliyyətlərə də vaxtım qalırdı. Hazırlıq dövründə vaxtında yatıb, vaxtında dururdum. Normal istirahət ediridim.

***- Belə yüksək nəticə göstərdiyin halda niyə dövlət ali məktəbini deyil, özəl ali məktəbi seçdin?***

- “Kompüter mühəndisliyi” ixtisasına və ingilis dilində təhsil almağa əvvəldən marağım olub. Qəbul imtahanında yüksək nəticə əldə edəndən sonra seçimimi rəsmiləşdirdim. Ölkədə ingilis dilində təhsil verən 3 ali məktəb var. Bakı Ali Neft Məktəbi, ADA və Qafqaz Universiteti. Mənim seçdiyim ixtisas isə 2 ali məktəbdə – ADA və Qafqaz Universitetində var. Sonda seçimim Qafqaz Universiteti oldu. Düşünürəm ki, bu ali məktəbdə təhsillə bağlı istədiklərimə nail olacağam. Qafqaz Universitetində bakalavr təhsilimi başa vurandan sonra magistratura təhsilimi xaricdə almaq istəyirəm. Təhsil almaq üçün seçimim 3 ölkədən (İngiltərə, İsveç və ABŞ) biri olacaq.

***- Hazırlıq dövründə ailən sənə necə dəstək verib?***

- Oxumağımda, yüksək nəticə göstərməyimdə ailəmin mənə çox böyük dəstəyi olub. Dərslərlə yaxşı məşğul olmağım üçün mənə hər cür şərait yaratmışdılar.

***- Qəbul imtahanında yüksək nəticə əldə etməsəydin, istədiyin ixtisası seçə bilməsəydin, hansı ixtisası seçib oxumaq istərdin?***

- Bu barədə heç fikirləşməmişəm. Çünki hər zaman yüksək nəticə qazanacağıma inanmışam. IX sinifdən qəbul imtahanında 650 balı keçəcəyimə və kompüter mühəndisi olacağıma inanırdım. Zəif nəticə göstərsəydim, sonradan olacaqlar barəsində düşünərdim.

***- Əlavə məşğuliyyətin və xobbin varmı?***

- İdmana marağım böyükdür. İdman növlərindən futbol, basketbol, bəzən də üzgüçülüklə məşğul oluram. Boş vaxtlarım olanda basketbol və futbol oynayıram.

***- Gələcək abituriyentlərə tövsiyən?***

- Qəbula hazırlaşan abituriyentlər məktəb dərslərini diqqətlə öyrənsinlər. Hər şeyi diqqətlə oxuduqda yadda da yaxşı qalır, testlərin cavabını da tez tapmaq olur. Bir də test sualları üzərində sürətlə işləməyi öyrənsinlər. Özünəinam da həm hazırlıq, həm də imtahan zamanı abituriyent üçün vacib keyfiyyətdir.

***Müsahibəni apardı: Könül Cəfərova***



***Bu il qəbul imtahanında yüksək nəticə göstərərək başqalarından fərqlənən abituriyentlərdən biri də Nəbizadə Fatimeyizəhradır. O, tam orta təhsilini Bakı Türk liseyində (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) alıb. Ailədə 5 nəfərdirlər: anası, atası, bacısı,qardaşı və özü. Anası tibb bacısı, atası mühəndis, yaşca böyük olan bacısı həkim, qardaşı isə mühəndisdir. Fatimeyizəhra qəbul imtahanına son 3 ildə hazırlıq kursunda hazırlaşıb. Qəbul imtahanında rekord nəticə (700 bal) əldə edib. "Qafqaz" Universitetinin "Kimya mühəndisliyi" ixtisasına qəbul olub. Prezident təqaüdçüsüdür.***

***- Texniki sahəyə marağın nə vaxtdan yaranıb?***

- Bu istək atamın və qardaşımın bu sahə ilə bağlılığından irəli gəlir. Atam da, qardaşım da mühəndisdir. Uşaq vaxtından fizikaya böyük marağım olub. VIII sinfə kimi bütün fənləri yaxşı oxumağıma, VIII sinifdə məktəblərarası bilik yarışında iştirak edib III yeri tutmağıma baxmayaraq, sonda qərara aldım ki, I ixtisas qrupu üzrə imtahan verəcəyəm. Ona görə də IX-XI siniflərdə ancaq I qrup üzrə hazırlaşmışam.

***- Bəzən deyirlər ki, mühəndislik qız sənəti deyil. Sənin bu fikrə münasibətin necədir? 700 bal topladığın halda başqa ixtisasları da seçə bilərdin.***

- Dediyim kimi, məktəb vaxtından fizikaya böyük marağım vardı. Təbii ki, bu fənni tam dərindən öyrənmək üçün I qrupa sənəd verməli idim. Hesab edirəm ki, mühəndislik fizikanın, fizika da mühəndisliyin açarıdır.

***- 700 ballıq nəticə əldə etmək üçün xüsusi istedad olmalıdır, yoxsa burada tale, qismət, şans hansısa rol oynayır?***

- Ola bilsin ki, belə nəticənin əldə edilməsində talenin, qismətin də müəyyən rolu var. Ancaq əsas məsələ odur ki, əgər qarşıya məqsəd qoyulubsa, buna nail olmaq üçün gərək əziyyət çəkəsən. Əziyyətin qarşılığı isə 700 bal ola da bilər, olmaya da bilər. Bu da, hardasa, qismətlə bağlıdır. Amma özünü sırf 700 bala hazırlasan, sistemli şəkildə hazırlaşsan, bu balı toplamaq çox da çətin deyil. Son 2-3 ildə ancaq 700 bal toplamaq barəsində düşünürdüm və inanırdım ki, qəbul imtahanında bu nəticəni əldə edə biləcəm. Düzdür, sınaq imtahanlarında bu nəticəni əldə edə bilməmişdim. Hansısa mexaniki səhvim olanda düşünürdüm ki, qəbul imtahanında bunu etməyəcəm. Belə düşünərək qəbula ciddi hazırlaşırdım. Son 2 ildə xüsusilə planlı, sistemli hazırlaşdım. Aşağı siniflərdə yaxşı oxumuşdum deyə, hazılaşmaq mənə çətin

olmadı. İmtahanda xüsusilə diqqətli oldum, həyəcanı minimuma endirdim. Ümumiyyətlə, belə hesab edirəm ki, yüksək nəticə göstərmək abituriyentin özündən asılıdır.

***- Hazırlıq planın necə idi, dərslər arasında vaxtı necə bölürdün?***

- Hazırlıq dövründə hər şeyə vaxt ayıra bilirdim. Bütün günü dərs oxumurdum. Gəzməyə, televizora, internetə baxmağa da vaxt ayırırdım. Dərslər üçün vaxtı da dəqiq bölürdüm. Hər fənn üzrə çalışmalarımın konkret müddəti var idi. Bazar günləri səhərdən axşama kimi oxuyurdum. Axşam da çox gec olmadan yatıb dincəlirdim. Hazırlıq dövründə özümə çox da əziyyət vermirdim. Fikirləşirdim ki, rejimimi düzgün qursam, nəticəm də yaxşı olar.

***- Bu mərhələdə ailənin, dotlarının sənə nə kimi dəstəyi olub?***

- Hazırlıq dövründə sinif yoldaşlarımla ünsiyyətim, münasibətlərim normal davam edirdi və ona da vaxt ayıra bilirdim. Dostlarım məni 700 bal toplayacağama inandırır və məni ruhlandırırdılar. Valideynlərim məni stresə salmamaq üçün məndən 700 bal gözlədiklərini demirdilər. Bəlkə də ürəklərində istəyirdilər, amma bunu mənə bildirmirdilər. Mənə deyirdilər ki, sən oxu, qismətində nə varsa, o da olacaq. Məndən hansısa yüksək nəticə qazanmağı tələb etmirdilər. Valideynlərimin məndən öncə bacım və qardaşımın təhsili ilə bağlı artıq müəyyən təcrübələri var idi. Onlarda daha çox həyəcan keçirmişdilər, nəinki məndə.

***- TQDK-nın nəşrlərindən yararlanmısan?***

- Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının nəşr etdiyi siniflər üzrə bütün test toplularını işləyib qurtarmışdım. Digər vəsaitlərindən də məlumatım var idi. XI sinifdə test bankı toplularından istifadə etmişəm. TQDK-nın keçirdiyi sınaq imtahanlarının hamısında iştirak etmişəm. Ən yüksək nəticəm 690 bal olmuşdu. Bəzən bir-iki sualda texniki səhvlərim olurdu. 700 balı isə ancaq qəbulda toplaya bildim.

***- İmtahan suallarının səviyyəsi, çətinlik dərəcəsi barədə nə deyə bilərsən?***

- İmtahan sualları hər bir hazırlıqlı abituriyentin cavablandıra biləcəyi səviyyədə idi. Sınaq imtahanlarındakı sualların modeli ilə uyğunluq təşkil edirdi. Bununla belə, mənə elə gəlir ki, sualların çətinlik səviyyəsi artırılsa, daha yaxşı olar. Bu, abituriyentləri qəbula daha ciddi, daha məsuliyyətlə hazırlaşmağa sövq edər.

***- Yüksək nəticə əldə edib bu ixtisası seçə bilməsəydin, başqa hansı ixtisası seçərdin?***

- Bu ixtisası seçmək imkanım olmasaydı, yəqin ki, riyaziyyat və ya fizika müəllimliyi ixtisaslarından birini seçərdim. Ancaq reallıq budur ki, yüksək nəticə əldə etdim və ürəyimcə olan ixtisası seçdim. Düşünürəm ki, qazanmaq istədiyim biliklərə təkmil formada Qafqaz Universitetində yiyələnə bilərəm. Gələcəkdə magistr təhsilini xaricdə almaq fikrindəyəm.

***- Səni bir gənc kimi digər tərəfdən də tanımaq istəyirik. Əlavə məşğuliyyətin, xobbin nədir?***

- Əlavə məşğuliyyət kimi rəqsi, musiqini, futbolu sevirəm. Gələcəkdə ingilis, alman, fransız dillərini öyrənməyi qarşıma məqsəd qoymuşam. Saz çalmağı öyrənmək istəyirəm. Bu maraq və istək ailədən gəlir. Ailəlikcə milli sərvətimiz olan saz musiqisini sevirik. Bu istək məndə 1-2 ildir yaranıb. Lakin fikirləşirdim ki, universitetə qəbul olum, sonra məşğul olaram.

***- Maraqlı adın var. Bu adı sənə kim qoyub?***

- Bununla bağlı müxtəlif rəylər, fikirlər eşidirəm. Bəziləri deyirlər ki, adımı cəlbedici olmaq üçün belə qoyublar. Ancaq qeyd edim ki, mən anadan olmazdan öncə anama yuxuda deyilib ki, qızın olacaq və bu adı ona qoyun. Buna əsasən də qərara alınıb ki, bu ad qoyulsun.

***- Növbəti 5 ildən sonra özünü harada və necə görürsən?***

- 5 ildən sonra özümü yenə də öyrənən, təhsil alan kimi görürəm. Yaxşı mütəxəssis olmaq üçün çox oxumalıyam. Amalım yüksəkdir və mən hələ bu yolun başlanğıcındayam. Hər şey qarşıdadır. Əsas məqsədim öz sahəmdə yaxşı kadr kimi ad-san qazanmaqdır.

***Gələcək abituriyentlərə məsləhət və tövsiyələrin maraqlı olardı.***

- Hər bir abituriyent qarşısına aydın məqsəd qoymalı, qəbul imtahanına planlı və sistemli şəkildə hazırlaşmalıdır. Yalnız bu halda o, istədiyi nəticəni əldə edə bilər.

*Müsahibəni apardı: Könül Cəfərova*



***Nurlan Quluzadə əvvəlcə 7 saylı tam orta məktəbdə oxuyub, VIII sinifdən isə təhsilini "Zəkalar" liseyində davam etdirib. O, məktəbdə oxuduğu dövrdə respublika və Bakı şəhəri üzrə fənn olimpiadalarının qaliblərindən olub.***

***Ailələri 4 nəfərdən ibarətdir: anası, atası, bacısı və özü. Anası müəllimə, atası isə polis işçisidir. Yaşca Nurlandan böyük olan bacısı Azərbaycan Dillər Universitetinin tələbəsidir. Nurlan deyir ki, bacısının ali məktəbə hazırlaşdığı illərdə bu işlə müəyyən qədər tanış olub və özü üçün təcrübə toplayıb.***

***I ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayan Nurlan Quluzadə "ADA" Universitetinin "İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi" ixtisasına qəbul olub. Prezident təqaüdçüsüdür.***

***- Fikrincə, liseylərdə verilən təhsillə digər məktəblərdə verilən təhsil arasında hansı fərqli cəhətlər var?***

- Mən 7 saylı məktəbdə VII sinifi bitirib "Zəkalar" liseyinə imtahan verdim və qəbul olundum. Qəbul olandan sonra əmin oldum ki, bu məktəb daha keyfiyyətli təhsil verən bir təhsil ocağıdır. Digər liseylər barədə elə bir məlumatım yoxdur. Amma özüm təhsil aldığım məktəbləri müqayisə etdikdə bizim liseydə təhsil mühitinin daha səviyyəli olması qənaətinə gəlirəm. "Zəkalar"ın müəllimləri daha peşəkar və tələbkardırlar.

***- Yüksək nəticə qazanmağı neçənci sinifdən qarşına məqsəd qoymuşdun? Onu necə əldə etdin?***

- Yüksək nəticə əldə etməyi əvvəldən qarşıma məqsəd qoymuşdum və onu əldə edəcəyimə inanırdım. Yüksək bal toplamaq üçün hər zaman çalışmışam. Həmişə 700 bal yığmaq istəmişəm. Çalışmalarımı daha təkmil və sistemli qurmuşam və sonda istədiyim nəticəni qazanmışam.

***- Yüksək nəticə göstərmək üçün abituriyent hansı keyfiyyətlərə malik olmalıdır?***

- Abituriyentin birinci növbədə güclü iradəsi, özünə inamı və əlbəttə, yaxşı müəllimləri olmalıdır. Bundan əlavə, o, çalışqan olmalı, öz üzərində işləməyi və səhvlərini görməyi bacarmalıdır.

***- Hazırlıq prosesində fənlər arasında vaxt bölgüsünü necə aparırdın?***

- Hazırlıq dövründə vaxtı özüm idarə edirdim. Müəyyən bir fəndə zəiflədiyimi görən kimi o birilərin hesabına həmin fənn üzrə hazırlıq vaxtını artırırdım. Yəni müəyyən dərəcədə balansı saxlamağa çalışırdım. Gün ərzində dərslərdən sonra hazırlıqlara ən azı 5-6 saat sərf edirdim.

***- 700 ballıq nəticə göstərmək bu müddətdə səni nələrdən məhrum edib?***

- Təbii ki, hazırlıqla əlaqədar bəzi şeylərdən müəyyən qədər təcrid olundum. Son 6 ayda əlavə işləri bir kənara qoydum və bütün vaxtımı dərslərə həsr etdim. Çünki əsas vaxtı təhsilə ayırdıqca, o biri işlərə az vaxt qalır. Dərslərdən sonra gündə əlavə oxumağa 5-6 saat vaxt ayırmaq az müddət deyil. Son aylarda isə hazırlıq prosesləri xeyli gərginləşdi. 11-ci sinifdə bütün fənlər üzrə əlavə hazırlıqlara getməli oldum.

***- Məktəbi yaxşı oxumusan, bəs əlavə hazırlıq sənə nə üçün lazım oldu? Özün hazırlaşaraq istədiyin nəticəni əldə edə bilməzdinmi?***

- Məktəbdəki dərs proqramlarının ardıcıllığı ilə hazırlıqdakı dərs proqramlarının ardıcıllığında fərq var idi. Hazırlığa getməsəydim, gərək XI sinif proqramlarını da öyrənəydim, sonra da imtahana girəydim. Bu isə o qədər də yaxşı nəticə verməzdi. XI sinifdə həm bu sinif üzrə proqramı öyrənməli, həm də ümumi proqramı təkrarlamalı idim. Bu, müəyyən mənada ikiqat əziyyət idi. Proqramı tam mənimsəmək üçün bunları tənzimləmək mütləq idi. Ümumiyyətlə, abituriyentin hansı formada hazılaşması - fərdi, kurslar və ya repetitor yanında olması onun öz seçimidir. Məktəbdə güclü təhsil verilərsə, 11 ildə proqram tam mənimsənərsə, abituriyent repetitor yanına getməyə bilər. Ancaq mənim fikrimcə, hazırki mərhələdə hələlik repetitorla hazırlaşmağa ehtiyac vardır.

***- Sınaq imtahanlarında nəticələrin necə olurdu, bunun sonradan imtahan həyəcanının azalmasına təsiri oldumu?***

- Sınaq imtahanları qəbul imtahanına hazırlaşmaq üçün müəyyən mənada bir məşqdir. Sınaqlarda iştirak etməklə imtahana psixoloji cəhətdən alışırsan. Bunun nəticəsidir ki, imtahana gedəndə artıq həyəcanım olmadı.

***- Hazırlıq dövründə valideynlərinin, ailənin sənə dəstəyi necə idi?***

- Ailəm mənə hər zaman dəstək olub. İmtahana yaxşı hazırlaşmağım üçün bütün lazımi şəraiti yaratmışdılar. Mənə görə onlar, hətta televizora da baxmırdılar ki, səs olmasın və mən rahat hazırlaşa bilim. Təkcə valideynlərimin deyil, müəlimlərimin, yoldaşlarımın da mənə dəstəyi olub. X-XI sinifdə daimi məktəb dərslərinə gedirdim deyə hər zaman uşaqlarla ünsiyyətdə olurdum. Bunun mənə çox köməyi olurdu. Düzdür, müəyyən yorğunluq da yaranırdı. Amma sinif yoldaşlarımın dəstəyi, onlarla apardığımız müzakirələr və s. mənə mənəvi cəhətdən müsbət təsir edirdi.

***- Qəbul imtahanından sonra 700 bal toplayacağına əmin idin?***

- Bu nəticəni əldə edəcəyimlə bağlı tərəddüdüm yox idi. Amma imtahandan çıxandan sonra istər-istəməz ağlıma qəribə şeylər gəlirdi. Birdən sürüşdürərəm, nəyisə səhv yazaram. İlk olaraq nəticəni özüm telefonla öyrəndim. Nəticələr çıxandan sonra sevincimi ilk olaraq ailəm və müəllimlərimlə bölüşdüm.

***- Əlavə xobbi və məşğuliyyətlərin varmı?***

- Əvvəllər musiqi ilə məşğul olurdum. 5 il tar sinfinə getsəm də hazırlıqla əlaqədar musiqiyə çox vaxt ayırmadım. Bundan əlavə, yayda boş vaxtlarımda üzgüçülüklə məşğul olmuşam. Yəqin ki, sonralar boş vaxtım olanda bu məşğələləri davam etdirəcəm.

***- Gələcək planların və arzuların nədən ibarətdir?***

- Universiteti və ixtisası hamının rəyini öyrənəndən, müəllimlərimin məsləhətini biləndən sonra seçmişəm. Gələcək planlarıma gəlincə, uğurlu bir iş həyatı gözləyirəm. 5 ildən sonra özümü yüksək mövqelərdə görmək istəyirəm. Xaricdə təhsil almaq fikrim var və əsasən, İngiltərədə oxumaq niyyətindəyəm.

***- Gələcək abituriyentlərə nə arzulayardın?***

- Qəbul imtahanında yüksək nəticə əldə etmək üçün hər şey abituriyentin özündən asılıdır. Abituriyent çox çalışmalı, çox oxumalı, hər şeyi dərindən öyrənməlidir ki, irəli gedə bilsin.

***Müsahibəni apardı: Könül Cəfərova***



***Samir Zahid oğlu Rzayev 2003-cü ildə Bakı şəhər 246 saylı tam orta məktəbin birinci sinfinə gedib. Beşinci sinifdən təhsilini Bakı Dövlət Universitetinin nəzdindəki Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyində davam etdirib. 2014-cü ildə həmin liseyi qızıl medalla bitirib. Riyaziyyat fənnindən Bakı şəhəri üzrə keçirilmiş olimpiadanın qalibi olub. II ixtisas qrupu üzrə qəbul imtahanında 700 bal toplayaraq "ADA" Universitetinin "Biznesin idarə olunması" fakültəsinə daxil olub. Prezident təqaüdçüsüdür.***

***– İmtahan nəticələrin ailəndə necə qarşılandı?***

– 700 bal ailəmiz üçün gözəl bir sürpriz oldu. Düzdür, sınaq imtahanlarında topladığım yüksək ballar, hardasa, valideynlərimdə rahatlıq yaradırdı, amma qəbul imtahanından danışanda həyəcanlarını gizlədə bilmirdilər. Məlum olanda ki, qəbul imtahanında 700 bal toplamış və üzərimə düşən vəzifəni gözləniləndən daha artıq səviyyədə yerinə yetirmişəm, valideynlərim hədsiz sevindilər. Onların əziyyətini itirmədiyim üçün mənə razılıqlarını bildirdilər. Amma eyni zamanda üzərimə yeni vəzifələr qoydular: ali məktəbdə mükəmməl təhsil almaq, xarici dili daha yüksək səviyyədə öyrənmək, universiteti fərqlənmə diplomu ilə başa vurmaq və s. Bir məqamı da qeyd edim: bacım 7-ci sinifdə oxuyur. Mənim 700 bal toplamağım və bunun nəticəsində ailədə və ictimaiyyətdə mənə münasibətdə yaranan diqqət, rəğbət onun dərslərinə ciddi yanaşması üçün stimul olub.

***– Məktəbi qızıl medalla bitirmisən, qəbul imtahanında da 700 bal toplamısan. Qazandığın bu iki uğur arasında hansı əlaqə var?***

– 700 bal toplamağım qızıl medalın təsdiqi idi. Mən aşağı siniflərdən əla qiymətlərlə oxumuşam və bunu axıra qədər davam etdirə bilmişəm. Qızıl medal almaq üçün tələb olunan bütün meyarlara cavab vermişəm. Məktəbimizin rəhbərliyinə, müəllimlərimə minnətdaram ki, mənim qızıl medala layiq olduğumu təsdiq etdilər. Qəbul imtahanı nəticələrim də bunun sübutu oldu. Qazandığım uğurlarda oxuduğum məktəbin və müəllimlərimin rolunu xüsusi vurğulamaq istəyirəm. Burada təhsilin keyfiyyəti çox yüksəkdir və peşəkar pedaqoji kollektiv çalışır. Bizə məktəbdə aşılayırdılar ki, insanın cəmiyyətdə özünə layiqli yer tutması üçün, ilk növbədə onun dərin elmi biliyi olmalıdır. Şagird yoldaşlarım da yaradılmış bu şəraitdən maksimum səmərəliliklə yararlanırdılar. Məhz bunun nəticəsidir ki, sinfimizdəki şagirdlərin 25 nəfəri qızıl medala layiq görüldü.

***– Qəbul imtahanlarına nə vaxtdan hazırlaşmağa başladın və hazırlıq prosesini necə qurdun?***

– Mən ali məktəbə qəbula məktəbimizdə qurulmuş sistem üzrə hazırlaşmışam. Burada şagirdlər 9-cu sinifdən başlayaraq ixtisas qruplarına bölünür. Seçdikləri qrupa daxil olan fənlər onlara gücləndirilmiş şəkildə tədris olunur. Bununla yanaşı, kurslar təşkil olunur, sınaq imtahanları keçirilir. Bunlar sırf ali məktəbə hazırlıq məqsədi daşıyır. Tarix və coğrafiya mənə nisbətən çətin gəldiyi üçün bu fənlərlə daha çox məşğul olurdum. Testlərlə çox işləyirdim. Bu yolla zəif tərəflərimi müəyyənləşdirir, müvafiq bölmələrə diqqəti artırırdım. Bu baxımdan, TQDK-nın təşkil etdiyi sınaq imtahanlarının da mənə çox faydası oldu. Sınaq imtahanlarında 10-cu sinifdən iştirak etməyə başlamışdım. Builki sınaq imtahanlarında ən yüksək nəticəm 665 bal olmuşdu. Bu da məndə özünəinam hissini artırmışdı. Qeyd etdiyim kimi, aşağı siniflərdən dərslərimi yaxşı oxumağım həm hazırlıq müddətində, həm də qəbul imtahanında mənə çox kömək oldu.

***– Qəbul prosesi ilə bağlı hansı mənbələrdən məlumat əldə edirdin?***

– Qəbulla bağlı elan və məlumatları “Abituriyent” jurnalının saylarından TQDK-nın rəsmi internet saytından və facebook səhifəsindən əldə edirdim. Elanların facebook səhifəsində də yerləşdirilməsi bizə çox kömək edirdi. Məlumdur ki, bu gün gənclər sosial şəbəkələrdən geniş istifadə edirlər. Ona görə yeni məlumatlardan operativ xəbər tutmaq üçün mən də TQDK-nın facebook səhifəsini izləyirdim.

***– Bəzi abituriyentlər imtahanda həyəcanlandıqlarını və bu səbəbdən sualları cavabladırarkən çətinlik çəkdiklərini deyirlər. Sən də belə bir hal keçirmisənmi?***

– Sınaq imtahanlarında dəfələrlə iştirak etməyimə baxmayaraq, qəbul imtahanında müəyyən qədər həyəcanlı idim. Lakin çalışdım ki, sualları diqqətlə oxuyum və düzgün cavablandırım. Bir neçə sualı cavablandırdıqdan sonra həyəcan keçdi və heç bir çətinlik çəkmədim. Dəqiq vaxtı deyə bilmərəm, amma imtahanın başa çatmasına xeyli qalmış mən bütün sualları cavablandırmışdım. Bununla belə, mexaniki səhvlərə yol verə biləcəyimdən ehtiyatlanırdım. Çünkü sınaq imtahanlarında belə səhvlərim olmuşdu. Xoşbəxtlikdən imtahanda belə hal baş vermədi.

***– Dərsdənkənar vaxtlarda hansı işlərlə məşğul olursan?***

– Vaxtımı, əsasən, ailəmlə keçirirəm. Bacıma dərslərində kömək edirəm. İdmana da həvəsim böyükdür. Müxtəlif vaxtlarda həvəskar kimi üzgüçülük və basketbolla məşğul olmuşam. Klassik ədəbiyyatımızı çox sevirəm. Boş vaxtlarımda Nizami Gəncəvinin

poemalarını,, Məhsəti Gəncəvinin rübailərini oxuyuram. XX əsr ədəbiyyatından isə Cəlil Məmmədquluzadənin hekayələrini mütaliə edirəm.

*– Təhsilinin növbəti mərhələləri haqqında nə düşünürsən?*

– Bakalavriat səviyyəsini bitirdikdən sonra təhsilimi xaricidə davam etdirmək fikrindəyəm. Hələlik hansı ölkəyə gedəcəyim haqqında konkret qərar verməmişəm. Amma düşünürəm ki, qəbul olduğum ixtisasın imkanları İngiltərədə daha böyükdür.

*– Ali məktəbə qəbula hazırlaşan gənclərə tövsiyən?*

– Məqsədyönlü çalışsınlar, zəhmət çəkməkdən yorulmasınlar. Qəbul imtahanına konkret proqram üzrə hazırlaşsınlar, test tapşırıqları üzərində çox işləsinlər. Özlərində testlə işləmək vərdişi formalaşdırsınlar. Bu üsul həm də təkrar rolunu oynadığından zəif tərəfləri aşkar etməyə kömək edir.

*Müsahibəni apardı: Emin Məmmədov*



***Qədimbəyli Qoşqar Azər oğlu 1997-ci ildə Bakı şəhərində anadan olub. V sinfə qədər təhsilini Bakı şəhəri 245 saylı tam orta məktəbdə, sonra isə 287 saylı "Zəkalar" liseyində alıb. 2014-cü ildə həmin liseyi qızıl medalla bitirib. Riyaziyyat fənni üzrə rayon və şəhər olimpiadalarının qalibi olub. Builki qəbul imtahanında II ixtisas qrupu üzrə 700 bal toplayaraq "ADA" Universitetinin "Beynəlxalq münasibətlər" ixtisasına qəbul olub. Prezident təqaüdçüsüdür.***

*–Məktəbdə əla oxumağına hansı amillər təsir edib?*

– Birinci sinfə gedəndən məktəbi bitirənədək valideynlərim mənim təhsilimə həmişə çox ciddi yanaşıblar. Onlar gündəlik işlərinin bir hissəsi kimi hər gün müəllimlərin verdiyi tapşırıqları mənim necə yerinə yetirməyimlə maraqlanırdılar. Bu da məndə dərslərə həm məsuliyyət, həm də həvəslə yanaşma hissi yaradırdı. Yaxşı təhsil almağımda "Zəkalar" liseyinin rolunu xüsusi vurğulamaq istəyirəm. Orada elə bir mühit vardı ki, ya oxumalıydın, ya da məktəbdəki proseslərdən kənarda qalmalıydın. Şagirdlər arasında ciddi rəqabət var idi. Hamı bilik səviyyəsinə görə bir-birini ötməyə çalışırdı. Müəllimlərimiz bilik yarışları təşkil edir və qaliblərə xüsusi diqqət ayırırdılar. Buna görə də hamı qalib olmağa çalışırdı. Bizə daim belə bir fikir aşılanırdı ki, bura təhsil ocağıdır və sizin burada işiniz oxumaqdan ibarət olmalıdır. Bütün bunlar mənim əla oxumağıma təsir edirdi.

*– Sinif yoldaşlarının qəbul imtahanında göstəriciləri necə oldu?*

– Qeyd edim ki, uşaqların, demək olar, hamısı yaxşı oxuyurdu və ali məktəbə qəbula ciddi hazırlaşırdı. Nəticədə 2 nəfər 700, 6 nəfər 650-dən artıq bal topladı. Yarıdan çoxu isə 600-650 arası nəticə göstərdi. Sinif yoldaşlarımın hamısı arzu etdikləri ixtisaslara qəbul olublar.

*– Gənclərin əksəriyyəti repetitorla hazırlaşmağı qəbula hazırlıq üçün vacib amil hesab edir. Sən bu haqda nə deyərdin?*

– Ali məktəbə qəbul olmağın təməlini orta məktəbdə qazanılan bilik təşkil edir. Belə

düşünmürəm ki, orta məktəbi yaxşı oxumayıb son siniflərdə repetitor yanına getməklə yüksək uğur əldə etmək olar. Mütləq əvvəldən məqsədli şəkildə dərslərini yaxşı oxumalısan. Mən yalnız 11-ci sinifdə oxuyanda repetitor yanına getmişəm. Bu müddətdə oxuduqlarımı təkrar edirdim. Sistemli olaraq hazırlaşmağı, test tapşırıqları ilə işləməyi, çətin mövzu və sualların izahı üçün repetitor xidmətindən istifadəni faydalı hesab edirəm.

***– Səncə, imtahana səmərəli hazırlaşmağın ən effektiv üsulu hansıdır?***

– Hazırlığı qəbul proqramı üzərində qurmaq lazımdır. İmtahanda təqdim olunan bütün suallar məhz qəbul proqramı əsasında hazırlanır. Bunu nəzərə alıb proqramı tam mənimsəyəndə suallar adama heç də çətin gəlmir. Mənim üçün hazırlıq vaxtı məktəb dərslikləri ilə yanaşı, TQDK-nın nəşr etdiyi jurnallar, dərs vəsaitləri, test kitabçaları da başlıca mənbə idi. Abituriyentlər bu vəsaitlərdən sistemli istifadə etməklə tam və ətraflı məlumat əldə edə bilirlər. Həmin məlumatları diqqətlə öyrənən gənclər imtahan fənlərinin məzmunu ilə yanaşı, onun texnoloji tərəflərinə də hazırlıqlı olurlar.

***– Seçdiyin ixtisas haqqında nə deyərdin?***

– “Beynəlxaq münasibətlər” ixtisasını öz arzumla seçmişəm. Valideynlərim də seçimimi dəstəkləyiblər. İmtahanda topladığım bal da imkan verdi ki, arzularımın reallaşması istiqamətində ilk pilləni keçim. “Beynəlxalq münasibətlər”, əslində, diplomatiya ixtisasıdır. Hər hansı bir xarici ölkədə öz vətənini təmsil etmək, onun milli maraqlarını qorumaq xüsusi bir vəzifə olmaqla yanaşı, həm də vətənpərvərlik borcudur. Bu sahədə çalışmaq üçün xarici siyasətlə yanaşı, öz ölkənin tarixini, mədəniyyətini də dərindən bilməlisən. Çalışacağam ki, təhsil müddətində yüksək səviyyədə ixtisaslaşım. İngilis dilini bilirəm. Bundan sonra bu dilə daha mükəmməl yiyələnəcəm. Amma diplomatiya sahəsində çalışmaq üçün bir xarici dil bilmək kifayət deyil. Ən azı bir-iki dil də öyrənməliyəm. Təhsil alacağım “ADA” Universiteti Azərbaycanda xarici siyasət üzrə kadr hazırlığını həyata keçirir. Orada xarici siyasət sahəsində böyük təcrübə keçmiş mütəxəssislər çalışır. Xarici tələbələrin də bu təhsil ocağına marağı böyükdür. Oxuduğum müddətdə “ADA” Universitetinin yaratdığı imkanlardan maksimum yararlanmağa çalışacam. Magistr təhsilimi isə xarici ölkələrin birində almaq niyyətindəyəm.

***– Bir gənc olaraq öz yaşıdlarını, ümumiyyətlə, Azərbaycan gəncliyini necə görmək istəyirsən?***

– Hər bir gənc cəmiyyət üçün gərəkli olmalıdır. Ölkəsinin tarixini, mədəniyyətini, adət-ənənələrini dərindən bilməlidir. Malik olduğu istedadı ölkəsinin marağı üçün sərf etməlidir. Bu gün gənclərimiz idman sahəsində böyük uğurlar qazanırlar. Bayrağımızı beynəlxalq səviyyəli idman yarışlarında qaldırırlar. Mədəniyyət sahəsində də onların beynəlxalq miqyasda uğurları çoxdur. Yaxın gələcəkdə gənclərimizin dünya səviyyəsində yüksək elmi nailiyyətlər əldə etməsini arzu edərdim.

***– Özün idmanla məşğul olmusan?***

– Boş vaxtlarımı idmana həsr edirdim. Ayrı-ayrı vaxtlarda müxtəlif idman növləri ilə məşğul olmuşam. 15 yaşıma qədər karate və dzü-do, sonralar isə trenajor zallarına getmişəm. Şahmat oynamağı da çox sevirəm. Məncə, pis vərdişlərdən uzaq olmaq üçün idman ən yaxş üsuldur.

***Sinif yoldaşı və dostu, qəbul imtahanında I ixtisas qrupu üzrə 628 bal toplamış Alqayev***

*Poladın Qoşqar haqqında dediklərindən...*

*– Qoşqar nümunəvi şagird idi. Dərslərə həmişə hazırlıqlı gəlirdi. Müəllimlərdən hər dəfə ondan dərs soruşmağı xahiş edirdi. Dərsi danışarkən mövzunu tam əhatə edir və uşaqların ona diqqətlə qulaq asmasını istəyirdi. Bizim sinifdə şagirdlər arasında yaxşı oxumaq üzrə ciddi rəqabət var idi və Qoşqar həmişə bu rəqabətin ön sırasında idi. Bilik yarışlarına qatılmağı sevirdi, çox zaman da qalib olurdu. Bunlarla yanaşı, Qoşqarın natiqlik istedadını da qeyd etmək istərdim. Ona görə də rəhbərlik məktəbimizdə keçirilən tədbirlərdə aparıcılıq etməyi həmişə ona etibar edirdi. Dərslərini yaxşı oxumaqla yanaşı, Qoşqar mətbuatı da izləyirdi. Mən onu daha çox informasiyalı gənc kimi də xarakterizə edərdim. Ölkəmizdə və dünyada nə yenilik olurdusa, onu ilk növbədə Qoşqardan eşidirdik. Gələcəkdə siyasətlə məşğul olacağını bildirir, hətta zarafatyana "Baş nazir olacağam" – deyirdi.*

*Müsahibəni apardı: Emin Məmmədov*



***Məmmədli Səbinə Sahil qızı Ucar rayonunda anadan olub. 2003-cü ildə Bakı şəhəri Binəqədi rayonu 276 saylı tam orta məktəbin I sinfinə qədəm qoyub. İbtidai təhsilini bu məktəbdə alsa da, sonradan ailəsi ilə bərabər Ucar rayonuna qayıdıb təhsilini 1 saylı texniki və humanitar təmayüllü məktəb-liseydə davam etdirib. Məktəbdə oxuyarkən dəfələrlə fənn olimpiadalarında iştirak edib, tarix, ədəbiyyat və Azərbaycan dili fənləri üzrə yüksək nəticələr qazanıb. 2014-cü ildə həmin məktəbi əla qiymətlərlə bitirib. Qəbul imtahanını Göyçay şəhərində verib, 695 bal toplayaraq 3-cü qrup üzrə respublika birinciliyini qazanan iki şəxsdən biri olub. "Hüquqşünaslıq" ixtisasını seçsə də rəsm çəkməyi, modelyer- dizayner işləri ilə də məşğul olmağı sevir. Atası iqtisadçı, anası isə həkimdir. Prezident təqaüdçüsüdür.***

***- Səbinə, əvvəla, səni qəbul imtahanında 3-cü qrup üzrə yüksək bal (695) toplamağın münasibətilə təbrik edirəm. Artıq sən Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquqşünaslıq fakültəsinin tələbəsisən. Keçirdiyin hissləri bizimlə bölüşə bilərsənmi?***

- Təbrikə görə çox sağ olun. Ali məktəbə qəbula hazırlaşarkən ən böyük arzum və məqsədim hüquqşünaslıq ixtisasına qəbul olmaq idi. Bu arzumu reallaşdırdığıma, qarşıya qoyduğum məqsədə çatdığıma görə özümü xoşbəxt hiss edirəm.

***- Yüksək bal toplamaq sənin üçün çətin oldu?***

- Əlbəttə, çətin oldu. Əgər qarşıya ciddi bir məqsəd qoymusansa, buna nail olmaq üçün hər əziyyətə qatlaşmalısan. Böyük arzu, böyük məqsəd böyük də zəhmət tələb edir.

***- Bəzən elə gənclərlə qarşılaşırıq ki, qəbul imtahanlarına həvəslə hazırlaşırlar, özlərinə konkret ixtisas müəyyənləşdirir, ali məktəbə qəbul olur, təhsillərini davam etdirib başa vururlar, lakin sonradan ya ixtisaslarını dəyişib başqa istiqamətdə təhsil alır, ya da fərqli sahədə əmək fəaliyyətinə başlayırlar. Sən necə düşünürsən, bu ixtisası bitirdikdən sonra hüquqşünas kimi fəaliyyət göstərəcəksən, yoxsa nə vaxtsa fikrini dəyişib başqa ixtisas sahibi olmaq istəyəcəksən?***

-Məncə, dediyiniz gənclər o gənclərdir ki,onlar istəklərinin konkret nədən ibarət olduğunu müəyyənləşdirməkdə çətinlik çəkirlər. Belələri ətraflarındakı insanların təsiri və məsləhəti ilə

hər hansı bir ixtisası seçir, amma bəzən bunu öz şəxsi seçimləri kimi qələmə verirlər. Həmin ixtisas üzrə təhsil aldıqdan, təhsillərini başa vurduqdan, hətta bəzən bir neçə il bu ixtisas üzrə işlədikdən sonra belə, özlərini bu sahədə doğrulda bilmədikləri qənaətinə gəlir və başqa peşə sahəsinə üz tutmalı olurlar. Mən buna heç də pis baxmıram, insan peşə seçimində səhv edə bilər, ancaq səhvini gərək vaxtında başa düşsün. Vay o günə ki, ömrü boyu sevmədiyi peşə sahəsində işləsin. Mən onu deyə bilərəm ki, seçdiyim ixtisası çox sevirəm, bu ixtisasa qəbul olmaq üçün çox zəhmət çəkmişəm, məqsədimə də çatmışam. Gələcəkdə təhsil və ya işlə bağlı planlarımı bu sahədən kənarda təsəvvür etmirəm. Sadəcə, magistr təhsilimi xaricdə davam etdirmək istəyirəm. Hüquqşünas kimi əməli fəaliyyətə başlamazdan öncə daha dərin bilik və təcrübə toplamaq arzusundayam.

***- Hansı şəxsi keyfiyyətlərin sənin gələcəkdə hüquqşünas olmağına əsas verir? Ümumiyyətlə, əgər bu ixtisası seçmisənsə, yəqin ki, hər zaman öz xəyallarında, təsəvvürlərində qurduğun bir hüquqşünas obrazı var. Onu təsvir edə bilərsən?***

- Hüquqşünaslıq kifayət qədər ağır və məsuliyyətli peşədir. Hüquqşünas ciddi xarakterə malik olmalı, çətin məqamlarda düzgün qərar çıxarmağı bacarmalıdır. Hər zaman qanunlara əsaslanaraq insanlara, cəmiyyətə xidmət etməli, onların hüquqlarını qorumağı bacarmalıdır. Haqqı, ədaləti qorumaq hüquqşünasın əsas amalı olmalıdır. Mən sizə düşüncələrimdəki bir xanım hüquqşünas obrazını təsvir etməyə çalışacam: onu insanların əhatəsində hər zaman aktiv əmək fəaliyyətində olan, yorulmadan çalışan, axtarıb- araşdıran, qanunların aliliyinə hörmət bəsləyən, qoruyan, köməksizlərə kömək edən, mədəni, səliqəli geyinən, ciddi görünüşlü bir insan kimi görürəm.

***- Ali məktəbə repetitor yanında hazırlaşmısan? Fikrincə, orta məktəbdə qazanılan bilik tələbə adını qazanmağa kifayət edirmi?***

- Mən ümumi təhsilin bütün səviyyələrini əla qiymətlərlə bitirmişəm. Lakin onu deyə bilərəm ki, əlaçılıq ali məktəbə yüksək balla qəbul olmaq üçün tam əminlik yaratmır, çünki qəbul imtahanında düşən suallar daha mürəkkəb və məntiqi olur. Məktəbdə nə qədər çox oxusam və əlaçı olsam da, başa düşürdüm ki, əgər qəbul imtahanında yüksək bal toplamaq istəyirəmsə, daha ciddi hazırlaşmalıyam. Ona görə əlavə məşğələlərə gedir, əlavə ədəbiyyatlar da oxuyur, çətinlik dərəcələri mürəkkəb olan test tapşırıqları həll edirdim.

***- Ali məktəb tələbəsi adını qazanmaqda hərənin bir məqsədi olur: kimisi sadəcə ali təhsil diplomu almaq, kimisi gələcəkdə yaxşı bir iş sahibi olmaq, kimisi nüfuzlu ixtisas əldə etmək və s. Bəs sən nəyi daha vacib hesab edirsən?***

***- Mənim üçün ali təhsil almaqda ən önəmli amil seçdiyim sahədə yüksək bilik və bacarıqlara yiyələnməkdir. Elm və bilik məqsədə doğru irəliləmək yolunda mənim üçün mayak olacaqdır.***

***-Ailədə neçə uşaqsınız?***

- Bir qardaşım var. Mən ondan 8 yaş kiçiyəm. Bəlkə də, ailəmizin kiçik övladı olduğum üçün valideynlərim mənim seçimlərimə məhdudiyyət qoyurlar. Mən, əslində, ali təhsilimi xaricdə almaq istəyərdim, amma valideynlərim mənə öz ölkəmizdə oxumağı məsləhət bildilər. Mən onların bu məsləhətinə hörmətlə yanaşdım. Ancaq istərdim ki, gələcəkdə magistr təhsilimi Avropa ölkələrindən birində alım.

***- Qəbul imtahanında maksimal bal deyil, 695 bal toplamısan. Bu, səndə necə təəssürat yaratdı?***

- Əlbəttə, mən 700 bal toplamaq istəyirdim. Buna qadir idim, lakin ingilis dili fənnindən etdiyim mexaniki bir səhv məni 700 bal sahibi olmaqdan məhrum etdi. Bu mənə müyyən qədər təsir etdi, çünki 124 sualı düzgün cavablandırıb, 1 suala səhv cavab verməl, təbii ki, məni təəssüfləndirdi. Ancaq bu hiss tez ötüb keçdi. Sevincim təəssüfümü üstələdi. Axı 3-cü qrup üzrə birincilərdən biriyəm, böyük uğur qazanmışam.

***- Qazandığın bu uğurda kimlərin payı, zəhməti var? Kimlərə minnətdarsan?***

- Əlbəttə ki, bu təkcə mənim uğurum deyil. İlk növbədə, ailəmə, valideynlərimə təşəkkür edirəm. Onlar məni böyüdüblər, yaxşı təhsil almağım üçün çox çalışıblar. Bu gün öz əziyyətlərinin hədər getmədiklərini görmək onları da çox sevindirir. Həmçinin, məktəb müəllimlərimə minnətdaram. Onların zəhməti sayəsində biliklərə yiyələnmişəm. Bilmədiklərimi onlardan öyrənmişəm. Hər zaman mənə mənəvi dəstək olublar. Uğurumda onların böyük payı var. Onların inamını doğrultduğum üçün özümü xoşbəxt hiss edirəm.

***- Bir az da imtahan günündən danış. İmtahan necə keçdi, imtahan mühiti və oradakı şərait haqqında nə deyə bilərsən?***

- Mən imtahanı Göyçay rayonunda verdim. İmtahanın gedişində heç bir mənfi halla rastlaşmadım. Nəzarətçilər imatahanı kifayət qədər ciddi idarə edirdilər. Ümumiyyətlə, imtahan qaydalara tam uyğun keçdi.

***- Bəs imtahan sulları haqqında nə deyə bilərsən? Sulların asanlıq və ya çətinlik dərəcələri, proqram materiallarını əhatə etməsi səni razı saldı?***

- Suallardan razı qaldım. Proqram materiallarından kənar suallarla qarşılaşmadım. Onların arasında asan suallar da var idi, orta çətinlikli və nisbətən çətin suallar da.

***- İmtahan vaxtı barədə nə deyə bilərsən? 125 test tapşırığını cavablandırmaq üçün vaxt kifayət etdi?***

- İmtahan üçün ayrılan 3 saat vaxt normaldır. Bütün sualları cavablandırmaq üçün şəxsən mənə 1 saat kifayət etdi. Bəlkə də, tələsməsəydim, səhv etdiyim 1 sualı da doğru cavablandırardım.

***- Bəs açıqtipli test tapşırıqlarına münasibətin necədir? Gələcək imtahanlarda digər fənlər üzrə də bu tipli test tapşırıqlarına yer ayrılmasını məqsədəuyğun hesab edirsənmi?***

- Açıqtipli test tapşırıqları abituriyentlərə fənləri daha dərindən qavramağa imkan yaradır. Ona görə bu tipli tapşırıqların gələcəkdə qəbul imtahanlarında digər fənlər üzrə tətbiq edilməsini məqsədəuyğun sayıram. Bu, abituriyentlərin imtahana daha ciddi hazırlaşmasına təkan olar.

***- Hazırda qəbul imtahanına hazırlaşan abituriyentlərə nə məsləhət verərdin?***

- XXI əsr internet əsridir. Bugünkü gənclərin əksəriyyəti sosial şəbəkələrdən istifadə edirlər. Mən abituriyentlərə tövsiyə edərdim ki, ən azı qəbula hazırlıq müddətində sosial

şəbəkələrdən uzaqlaşsınlar. Bütün fikirlərini dərslərinin üzərində cəmləsinlər.

- Aydındır ki, qəbul imtahanına ciddi hazırlaşdığın müddətdə boş vaxtın az olub. Ancaq, ümumiyyətlə, boş vaxtlarını necə keçirdiyini bilmək maraqlıdır.

- Qəbul imtahanına hazırlaşarkən boş vaxtım olmurdu. Heç özüm də imkan vermirdim ki, boş vaxtım qalsın. Ümumiyyətlə, bədii kitablar oxumağı çox sevirəm. Bədii ədəbiyyat həm tərbiyə vasitəsidir, həm də zövq mənbəyidir. Hər hansı bir əsəri oxuyarkən mənfi və müsbət obrazları təhlil edir, əsərdəki hadisələri həyatla əlaqələndirməyə çalışır və müəyyən nəticə çıxarırıq. Digər tərəfdən, çox kitab oxumaq, mütaliə insanın intellektual və emosional aləmini zənginləşdirir, fikirlərini sərrast, rahat ifadə etməkdə ona yardımçı olur.

*- Səncə, Azərbaycanın daha da inkişaf etməsində gənclərimizin nə kimi rolu ola bilər?*

- Bu gün Azərbaycan dünyanın kifayət qədər tanınan, yüksək templə inkişaf etməkdə olan ölkələrindəndir. Bunu ölkəmizdə müntəzəm olaraq müxtəlif beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi də təsdiq edir. Azərbaycan dövləti öz gənclərinə inanır, onun inkişafına böyük qayğı göstərir. Təbii ki, gənclərimiz də dövlətimizə dəstək olmalı, hər sahədə özlərini doğrultmağa çalışmalı, bilik və bacarıqlarını daha da genişləndirməli, dünyanın mütərəqqi praktikası ilə tanış olmağa can atmalıdırlar. Azərbaycan həqiqətlərini dünyaya bəyan etmək üçün əllərindən gələni etməlidirlər.

***- Kifayət qədər ciddi hazırlıqdan sonra istəyinə, arzuna çatmısan, tələbə adı qazanmısan. Bəs əldə etdiyin bu böyük uğurdan sonra zehni yorğunluqdan qurtarmaq üçün nə etmisən?***

-Təbii ki, çox yorulmuşdum, imtahandan sonra üzərimdən ağır bir yükün götürüldüyünü hiss edirdim. Yay aylarında ailəmlə birgə Azərbaycanımızın bir çox dilbər güşələrində olduq. Təbiətlə təmasda olmaq, onun gözəlliklərini duymaq mənə xüsusi rahatlıq və zövq verdi. İnsan qarşısına qoyduğu məqsədə çatanda bütün bunlar onda xüsusilə dərin təəssüratlar yaradır.

***- Qarşıdakı tələbəlik həyatını necə təsəvvür edirsən? Tələbəlik dövründən hansı yenilikləri gözləyirsən?***

- İnsan çalışmalıdır ki, həyatının hər bir mərhələsini maraqlı və yaddaqalan keçirsin. Mən tələbəlik illərinin maraqlı və uğurlu keçməsi üçün əlimdən gələni edəcəyəm. Tələbəlik bizim bir şəxsiyyət kimi, mütəxəssis kimi formalaşmağımızda xüsusi bir mərhələ olacaq.

***- Məktəb illərini xatırlayanda hansı hissləri keçirirsən?***

-Məktəb illəri uşaqlıq, yeniyetməlik və gənclik dövrü arasında körpü rolunu oynayır.Bu illərdə gözəl günlərimiz çox olub: müəllimlərimizin tərifləri, danlaqları, iştirak etdiyimiz olimpiada və yarışlardakı uğurlarımız, sinfimizin yaddaqalan tədbirləri, ekskursiyalarımız – bütün bunlar məktəb illərinin unudulmaz xatirələridir. Təbii ki, bunları xatırlayanda, istər-istəməz, kövrəlirik. Bəli, artıq qayğısız, məsum uşaqlıq çağlarımız geridə qaldı, amma nə yaxşı ki, o anları fotolara və videolara həkk edə bilmişik. Onların vasitəsi ilə keçmiş günlərin ətrini illər sonra yenidən duya biləcəyik, baş verənlər gözümüz önündən videolent kimi gəlib keçəcək.

***- Bildirmək istədiyin əlavə arzu, fikir və ya təklifin varmı?***

- Mən ali məktəbə qəbul olan bütün abituriyentləri təbrik edirəm və hər birinə tələbə

həyatında uğurlar arzulayıram. Bakalavriat səviyyəsini müvəffəqiyyətlə bitirsinlər, gələcəkdə daha böyük uğurlara nail olsunlar. İmtahanlardakı şəffaflıq və obyektivliyə görə isə TQDK-nın kollektivinə təşəkkür edirəm. Bu şərait hər birimizdə özümüzə böyük inam yaratmışdı. Biz hamılıqla TQDK-nın "Bilik qiymətləndirilir" devizinin əyani şahidi və iştirakçısı olduq.

*Müsahibəni apardı: Leyla Əkbərova*



***Nəzərova Zəhra Xudaverdi qızı Xəzər rayonu Buzovna qəsəbəsi 26 saylı tam orta məktəbi əla qiymətlərlə bitirib. Məktəb illərində bir çox bilik yarışı və olimpiadaların iştirakçısı olub, kimya fənni üzrə isə respublika olimpiadasında üçüncü yeri tutub. Boş vaxtlarında şəkil çəkməyi, maraqlı və əyləncəli verilişləri izləməyi, musiqi dinləməyi xoşlayır. Zəhranın atası Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin nəzdində fəaliyyət göstərən Geofizika və Geologiya idarəsində sazlayıcı, anası isə 289 saylı bağçada tərbiyəçi vəzifəsində çalışır. Bacısı Fatimə ADİU-nun 3-cü kurs tələbəsidir. Prezident təqaüdçüsüdür.***

***- Zəhra, ilk öncə səni qazandığın yüksək uğur münasibətilə təbrik edirik. Sən artıq Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsisən. Nəyə görə məhz ARPDİA-nı seçdin?***

- Qəbula hazırlaşarkən bu ali təhsil müəssisəsinin tələbəsi olmaq ən böyük arzum idi. Oraya qəbul olanlara qibtə edirdim. Artıq bu, mənim üçün arzu deyil, reallıqdır.

***- Bəs, bu arzuna necə nail ola bildin? Yəqin ki, böyük çətinliklərdən keçmisən.***

- Əlbəttə, həyatda böyük uğurlar asanlıqla qazanılmır. Əgər qarşına yüksək məqsəd qoymusansa, ona çatmaq üçün gərək əlindən gələni edəsən. Mən də çox çalışdım, əlavə məşğuliyyətlərimdən imtina etdim və məqsədimə çatdım. Ola bilsin ki, buna heç çətinlik də demək olmaz, çünki zəhmət çəkdikcə, bunun bəhrəsini gördükcə, elmi biliklərə yiyələndikcə zövq alırsan, məmnun olursan.

***- Səndə hüquqşünas olmaq istəyi nə zamandan yaranıb? Nəyə görə məhz bu ixtisası seçdin?***

- Mənim atam sazlayıcı, anam tərbiyəçidir. Ailəmizdə heç kim hüquq təhsili almayıb. Məndə hələ kiçik yaşlarımdan hüquqşünas olmaq istəyi yaranıb. Yaşım artdıqca istəyim dəyişmədi və qərara gəldim ki, daha böyük səylə çalışım, arzumu reallaşdıra bilim. Yuxarı siniflərdə oxuyanda hüquqşünaslığın çətin peşə olduğunu dərk etdim, ancaq insanlara kömək etmək, onların hüquq və azadlıqlarının müdafiəsində durmaq arzusu məni bu ixtisasa yiyələnməyə daha da həvəsləndirdi.

***- Gələcəkdə təhsilini bu ixtisas üzrə davam etdirmək istəyirsən, yoxsa ixtisasını dəyişmək fikrindəsən?***

- Gələcəkdə də təhsilimi bu istiqamət üzrə davam etdirmək istəyirəm. Ancaq magistr təhsilimi xaricdə almaq niyyətindəyəm. Bu sahə üzrə dünya praktikasının nailiyyətlərini mənimsəmək, ən son yeniliklərdən xəbərdar olmaq, bu fəaliyyət növündə daha vacib məsələlərin nələr olduğunu, onların həll yollarını öyrənmək istəyirəm.

***- Qəbul imtahanında ən yüksək bal toplamaq üçün mütləq repetitor yanında hazırlaşmaq lazımdır?***

- Xeyr, bu, mütləq deyil. Mən orta məktəbi əla qiymətlərlə bitirmişəm. 10-cu sinifdə oxuyarkən Bakıda fəaliyyət göstərən tədris mərkəzlərindən birində imtahan verdim, yüksək bal topladım və həmin mərkəz məni ali məktəbə təmənnasız hazırlaşdırmağı öhdəsinə götürdü. Nəticədə, mən heç nə itirmədim, həm ailəmizin üzərinə düşən maliyyə yükünü azaltdım, həm də hazırlıq kursunda əlavə məşğul olmaqla bilik səviyyəmi artırdım.

***- Hazırda ali məktəbə qəbul olmaq gənclər arasında sanki bir dəbə çevrilib. Layiq olanlar da, olmayanlar da tələbə olmaq istəyir. Bəs sənin ali məktəbə qəbul olmaq istəyinin arxasında hansı motivasiya dayanır?***

- Haqlısınız. Ətrafımızda elə gənclər var ki, qəbul imtahanına ciddi hazırlaşmır, ancaq tələbə olmaq istəyirlər. Əlbəttə, təhsilə belə münasibət bəsləmək olmaz. Biz evdə iki bacıyıq. Valideynlərim həmişə bizim bilikli, savadlı olmağımızı, mükəmməl ali təhsil almağımızı istəyiblər. Özümüz də elmə, kitablara bağlı olmuşuq. Oxumaq əsas məqsədimiz olub. Mən tələbə adını seçdiyim ixtisasda özümü doğrultmaq və gələcəkdə xalqımıza ləyaqətlə xidmət etmək istəyi ilə qazanmışam.

***- Qəbul imtahanında yüksək bal toplayacağına inanırdın?***

- Bəli, 700 bal toplaya biləcəyimə inamlı idim. Düzdür, sınaq imtahanlarında 700 bal toplaya bilməmişdim. Lakin, nədənsə, qəbul imtahanında bu balı toplaya biləcəyimə inanırdım. Ədəbiyyat fənnindən etdiyim 1 səhv bu arzumun qarşısını aldı. Bununla belə nəticəmi öyrənəndə sevincimin həddi-hüdudu yox idi. Valideynlərimin və müəllimlərimin mənim üzərimdə çəkdikləri əziyyət hədər getməmişdi.

***- Əldə etdiyin bu uğura görə kimlərə minnətdarsan?***

- İlk növbədə valideynlərimə. Onlar həyatımın hər mərhələsində mənə arxa-dayaq olublar. Daha sonra bacıma minnətdaram. O, mənə xüsusi diqqət ayırır, dərslərimdə yardımçı olur, mövzulara aid suallar verir, qarşıma çıxan çətinliklərdə mənə köməklik edirdi. Üzərimdə zəhməti olan müəllimlərimə də minnətdaram, məhz onların sayəsində fənləri sevmiş, biliklərə yiyələnmişəm.

***- Abituriyentlərə hansı tədris resurslarından istifadə etməyi məsləhət görürsən?***

- Tövsiyəm budur ki, ümumtəhsil məktəbləri üçün dərsliklərdən, TQDK-nın nəşr etdiyi dərs vəsaitləri və test kitabçalarından əsas mənbə kimi istifadə etsinlər. Həmçinin, mütəmadi olaraq “Abituriyent” jurnalının yeni çıxan nəşrlərini oxusunlar, yeniliklərdən xəbərdar olsunlar.

***- Qəbul imtahanı verdiyin imtahan zalında vəziyyət və nəzarətçilərin fəaliyyəti necə idi?***

- Mən imtahanı Bakı şəhəri 42 saylı orta məktəbdə verdim. İmtahanın gedişində heç bir neqativ halla rastlaşmadım. Nəzarətçilər zalı kifayət qədər ciddi idarə edirdilər. İmtahan otağındakı sakitlik fikirlərimi toplamağa və sualları doğru cavablandırmağıma kömək etdi.

***- Olarmı, imtahan gününün təəssüratlarını bizimlə bölüşəsən?***

- İmtahandan öncə bir qədər həyəcanlı idim. Aydın məsələdir ki, imtahan həyəcansız ola bilməz. Eyni zamanda, məsuliyyətli idim, özümə nəzarət edə bilirdim. Sualları diqqətlə

oxuyur, araşdırır, sonra cavablandırırdım. Çalışırdım ki, tələsməyim və səhvə yol verməyim. Hər bir sualı doğru cavablandırmaq məndə rahatlıq hissi yaradırdı.

***- İmtahan sualları proqram materiallarını əhatə edirdi? Ümumiyyətlə, suallar haqqında nə deyə bilərsən?***

- Sualların hamısı proqram materialları çərçivəsində idi. Təbii ki, onların hamısı asan və ya çətin deyildi, aralarında məntiqi suallar da var idi. Hesab edirəm ki, gələcək qəbul imtahanlarında sualların çətinlik dərəcəsini artırmaq lazımdır. Əlbəttə, belə sualların modelini əvvəlcədən "Abituriyent" jurnalında dərc etmək lazımdır ki, abituriyentlər onlarla tanış olsunlar. Bu halda abituriyentlər sulların çətin olduğunu görüb, qəbula daha səylə hazırlaşar və nəticədə ali məktəbə daha savadlı abituriyentlər qəbul olar.

***- Necə düşünürsən, imtahan sualları arasında qapalı tipli test tapşırıqları ilə yanaşı, açıq tipli tapşırıqların olması müsbət haldır?***

- Məncə, açıq tipli test tapşırıqları həmin fənni daha dərindən mənimsəməyi tələb edir. Bu baxımdan gələcəkdə digər fənlər üzrə də bu tipli test tapşırıqlarının salınması məqsədəuyğun olar. Bu, abituriyentlərin daha dərin bilik və bacarıqlara yiyələnmələri üçün vacibdir.

***- Qəbul imtahanına hazırlaşan abituriyentlərə nə məsləhət verərdin?***

- Məsləhət görərdim ki, vaxtlarını boş yerə sərf etməsinlər, dərslərinə məsuliyyətlə yanaşsınlar, ciddi oxusunlar, nəzəri biliklərə yiyələndikdən sonra test tapşırıqları üzərində çox işləsinlər. Bu, onların biliklərinin möhkəmlənməsi üçün vacibdir. Mütəmadi olaraq yeniliklərdən xəbərdar olsunlar. Hazırlıq dövründə əlavə məşğuliyyətlərindən imtina etsinlər, dəyərli vaxtlarını sosial şəbəkələrlə itirməsinlər. Təbii ki, bütün günü dərslərlə məşğul olmaq beyni yora bilər. Ona görə də arada fasilə verib dincəlsinlər, çalışmalarla istirahəti növbələşdirməyi bacarsınlar.

***- Bildiyimizə görə, sənin şəkil çəkməyə marağın var. Bu həvəs səndə nə zamandan yaranıb?***

-Bəli, mənim əsas xobbilərimdən biri şəkil çəkməkdir. Şəkil çəkərkən dincəlirəm, bundan zövq alıram. Məndə şəkil çəkməyə maraq orta məktəbdə oxuyan vaxtdan yaranıb. Əsasən, yorğun olanda qələmi əlimə alır və müxtəlif rəsmlər çəkməyə başlayıram. Peşəkar rəssam olmasam da, çəkdiyim hər obrazda, mənzərədə öz hisslərimi, arzularımı, ideyalarımı əks etdirməyə çalışıram.

***- Bugünkü Azərbaycan gəncliyi haqqında nə deyə bilərsən? Gənclərimiz ölkəmizin inkişafı üçün nələri etməlidirlər?***

- Məncə, bu gün Azərbaycan gəncliyi ümumilikdə müasirliyə doğru inkişaf etməkdədir. Bunun əsas səbəblərindən biri dövlətimizin gəncliyin inkişafına böyük diqqət və qayğı göstərməsidir. Odur ki, hər bir gənc yaradılan bu əlverişli şəraitdən, qayğıdan faydalanmalı, vətənimiz üçün yaxşı vətəndaş olmalı, ölkəmizi onun sərhədlərindən kənarda uğurla təmsil etməlidir. Olduqca fərəhli haldır ki, bu gün istənilən sahədə- elm, idman, səhiyyə, müsiqi sahələrində səsimizi, adımızı dünyaya tanıda biləcək kifayət qədər gənclərimiz var. Mən Azərbaycan gənclərini mədəni, intellektual səviyyəsi yüksək, dünyagörüşü zəngin, inkişafa can atan nəsil kimi görürəm və bu, mənə qürur hissi bəxş edir.

*- Müsahibənin sonunda bildirmək istədiyin arzu, istək və ya təklifin varmı?*

- Mən ali məktəbə qəbula hazırlaşan gənclərə uğurlar arzu edirəm. Onlara tam məsuliyyət və inamla bildirirəm ki, "Bilik qiymətləndirilir" meyarını hər zaman öz fəaliyyətində rəhbər tutan TQDK sizin də bilik və bacarığınızı ədalətlə, obyektivliklə qiymətləndirəcək.

*Müsahibəni apardı: Leyla Əkbərova*



***Məmmədzadə İlkin Rəfael oğlu 1996-cı ildə Ağdam rayonunun Çəmənli kəndində anadan olub. Çəmənli kənd tam orta məktəbinin əlaçı məzunudur. IV ixtisas qrupu üzrə 700 bal toplamaqla maksimal nəticəyə nail olub. Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasına qəbul olub. Prezident təqaüdçüsüdür.***

***– Minlərlə həmyaşıdından müsbət mənada fərqlənmək, yəqin ki, insana fərqli hisslər yaşadır. Bu baxımdan əldə etdiyin rekord nəticə səndə hansı duyğu və düşüncələr yaratdı?***

– Ali məktəbə qəbul olmaq mənim həyatda qazandığım, hələ ki, ən böyük uğurdur. İmtahandan çıxandan sonra inanırdım ki, nəticəm yüksək olacaq, amma 700 bal topladığıma əmin deyildim. Bəzi suallarda tərəddüd etmişdim. TQDK tərəfindən imtahan nəticələri elan olunduqda maksimal nəticə əldə etdiyim bəlli oldu. Çox sevindim, valideynlərim, müəllimlərim, qohumlar, sinif yoldaşlarım, hamı məni təbrik edirdi. Sanki birdən-birə sadə kənd uşağından məşhur bir insana çevrilmişdim. 700 bal toplayan abituriyentlər həmişə olduğu kimi, ictimaiyyəti çox maraqlandırır. Mənimlə də maraqlandılar. KİV nümayəndələri məndən müsahibə almaq üçün zəng vurmağa başladılar. Keçirdiyim hisslərin mənasını sözlə ifadə etmək çətindir. Gərək, onları yaşayasan. Belə sevinc hisslərini yaşamağı hər bir gəncə arzulayıram.

***– Həkimlik peşəsini öz istəyinlə seçmisən, yoxsa kimlərsə istiqamətləndirib?***

Uşaq vaxtı məndən soruşanda ki, böyüyəndə kim olacaqsan, mən "həkim" deyirdim. Əlbəttə, o vaxt bu peşənin mahiyyətini, əhəmiyyətini çox da dəqiq başa düşmürdüm. Yuxarı siniflərdə oxuyanda apardığım müşahidələrin nəticəsi olaraq bu arzum daha da qətiləşdi. Valideynlərim də, demək olar ki, mənim istəyimlə razılaşmışdılar. Daha sonralar isə bu istək məndə bir məqsədə çevrildi. Bilirdim ki, bu ixtisasa qəbul olmaq çətindir. Bunun üçün böyük zəhmət tələb olunur. Mən də belə etdim və sonda arzuma çatdım.

***– Təhsilinlə bağlı sənə ən çox kimlərin, yaxud nələrin təsiri olub?***

– Mən babamgildə yaşamışam. Babam da, nənəm də müəllim işləyirlər. Onlar həmişə mənə dərslərə ciddi yanaşmağı, yaxşı oxumağı, əlaçı olmağı tövsiyə edirdilər. Atam və anam da mütəmadi olaraq dərslərimlə maraqlanırdılar. İbtidai sinifdən dərslərimi yaxşı oxumağım müəllimlərimin də mənə diqqətini artırmışdı. Bütün bunlar məni ruhlandırırdı. Əvvəlki illərdə yüksək nəticə göstərən abituriyentlər haqqında televiziyada maraqlı verilişlər göstərirdilər. Qəzetlərdə, jurnallarda onların müsahibələri dərc olunurdu. Bunları da maraqla izləyir, oxuyurdum. Çalışırdım ki, mən də həmin uşaqlar kimi yüksək nəticə göstərim. Bunun üçün yuxusuz gecələr keçirmişəm, gərgin zəhmət sərf etmişəm.

*– Cəbhə bölgəsində yaşayıb təhsil almağın, şübhəsiz ki, sənin həyat tərzinə təsir edib. Bu haqda nə deyərsən?*

– Düzdür, təmas xəttinə yaxın bir ərazidə yaşamağın, təhsil almağın çətinlikləri var. Düşmən tərəfindən hər zaman təhlükəni hiss etsək də, əsgərlərimizə güvənirdik. Etibarlı medafiə olunduğumuza əminlik, məktəbimizdə yaxşı təhsil almaq üçün hər cür şəraitin mövcudluğu yüksək nəticəyə nail olmaq inamımı hər an artırırdı.

*– Təhsilin, elm, bilik qazanmağın əhəmiyyətini nədə görürsən?*

– Məncə, kamil insan kimi yetişmək, formalaşmaq üçün təhsil vacib şərtdir. Hansı sahədə olursan ol, əgər öz vətəninə, xalqına, xidmət etmək istəyirsənsə, həm bacarığın, həm də dərin biliyin olmalıdır. Özümə gəlincə, hələ birinci sinifdən başlayaraq dərslərimi yaxşı oxuyurdum. Oxumağı özüm üçün ən əsas vəzifə hesab edirdim. Fikirləşirdim ki, bu gün mənə tapşırılan iş bundan ibarətdir, mən bu işin öhdəsindən layiqincə gəlməliyəm. Amma əhəmiyyətini geniş mənada tam dərk etmirdim. Bir sözlə, oxumağa gündəlik işim kimi baxırdım. Getdikcə ətrafımdakıların, ictimaiyyətin ziyalı insanlara fərqli baxdıqlarını gördüm. Beləcə, mən də ziyalılara hörmətlə yanaşmağa başladım. Bir ziyalı kimi yetişməyi qarşıma məqsəd qoymuşam.

*– Təhsil sahəsində yüksək nailiyyət qazanmaq üçün nə etmək, nədən başlamaq lazımdır?*

– Hansı sahə olur olsun, ilk öncə, insanın qarşısında aydın məqsədi olmalıdır. Həmin məqsədə çatmaq üçün yorulmadan çalışmaq lazımdır. Hər bir məktəblinin gündəlik fəaliyyətinin əsasını oxumaq təşkil etməlidir. Bu zaman vaxt bölgüsünü də düzgün aparmaq lazımdır. Şagirdlər bütün fənləri yaxşı oxumalıdırlar. İmtahanda uğur qazanmaq xatirinə diqqəti yalnız bir neçə fənnə yönəltmək, məncə, kifayət deyil, gərək bütün fənləri dərindən öyrənəsən, həm də geniş dünyagörüşünə yiyələnəsən.

*– Qəbul imtahanına hazırlaşan gənclərə nələri tövsiyə edərdin?*

– İmtahana çox ciddi yanaşmaq lazımdır. Gənclərin gələcək arzularının reallaşması məhz həmin imtahandan asılıdır. Bunun üçün oxumağa mümkün qədər çox vaxt ayırmaq, hazırlıq prosesini sistemli qurmaq lazımdır. Arada istirahət etməyi də unutmaq olmaz. Gənclər yadda saxlasınlar ki, bilik hər zaman qiymətləndirilir. Onları bilikdən, təhsildən, oxumaqdan ayıran hər şeydən uzaq dursunlar. İmtahanın texnoloji tərəflərinə də hazır olsunlar. Sınaq imtahanlarında iştirak etsinlər, imtahan prosesini diqqətlə izləsinlər. Sualların cavablandırılması üçün ayrılan vaxt bölgüsünü düzgün aparsınlar. Ümumiyyətlə, vaxtdan səmərəli istifadə etsinlər.

*– Gələcək planların nədən ibarətdir?*

– Universiteti bitirdikdən sonra təhsilimi xarici ölkədə davam etdirmək fikirindəyəm. Oranı da başa vurduqdan sonra vətənimə qayıtmaq və yüksəkixtisaslı mütəxəssis kimi çalışmaq istəyirəm. Əlbəttə, bu sahədə ölkəmizdə kifayət qədər yaxşı mütəxəssislər var və mən onlardan ixtisasın sirlərini dərindən öyrənməyə səy göstərəcəm. Bir sözlə, çalışacam ki, yaxşı həkimlərdən biri olum.

*Müsahibəni apardı: Emin Məmmədov*



***Qasımov Nicat Nazim oğlu 1997–ci ildə Ağsu rayonunda anadan olub. 2014-cü ildə Ağsu şəhər 1 saylı tam orta məktəbi bitirib. Məktəbdə oxuduğu müddətdə kimya və biologiya fənləri üzrə olimpiadalarda iştirak edib. Bir sıra intellektual verilişlərin iştirakçısı olub. IV ixtisas qrupu üzrə qəbul imtahanında bütün suallara düzgün cavab verərək 700 bal toplayıb. Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasına qəbul olub. Prezident təqaüdçüsüdür.***

***– İmtahan günündəki psixoloji durumunu necə xatırlayırsan?***

– İmtahanın gedişində yox, imtahandan sonra çox həyacanlı idim. Nəticələrimi tezliklə dəqiq bilmək istəyirdim. Space telekanalında yayımlanan "Abituriyent" verilişi vasitəsilə nəticələrimi yoxladım və bildim ki, bütün suallara düzgün cavab vermişəm. Hədsiz sevindim. Evimizdə görünməmiş şən əhvali-ruhiyyə yarandı. Valideynlərim, xüsusən də, atam sevincdən kövrəlmişdi. TQDK tərəfindən imtahan nəticələri rəsmən elan olunanda bu xəbəri ilk öyrənən riyaziyyat müəllimim oldu. Zəng vurub məni təbrik etdi. O da 700 bal toplamağımdan çox məmnun olmuşdu.

***– Qarşına maksimal nəticə əldə etməyi məqsəd qoymuşdun?***

– Hazırlığın ilk mərhələsində maksimal nəticə deyil, yüksək nəticə qazanmaq istəyi ilə çalışırdım. Ancaq bu istək mərhələdən-mərhələyə keçdikcə güclənirdi. Məqsədim Tibb Universitetinin "Müalicə işi" ixtisasına qəbul olmaq idi. Əvvəlki illərin məlumatlarından öyrənmişdim ki, IV ixtisas qrupunda ən yüksək bal toplayan abituriyentlər birinci yerdə məhz həmin ixtisası seçirlər. Onu da bilirdim ki, Prezident təqaüdçülərinin əksəriyyəti "Müalicə işi" ixtisasında təhsil alır. Böyük rəqabət olacağı öncədən aydın idi. Odur ki, çox çalışırdım. Sınaq imtahanlarında əldə etdiyim nəticələr bu arzuya çatmağın yaxın olduğunu göstərirdi. Sonuncu sınaq imtahanında 681 bal toplamışdım. Amma bununla heç cür arxayınlaşmır, var gücümlə çalışırdım. Buna görə də 700 bal toplaya bildim.

***– İmtahanda sualların cavablandırılması üçün ayrılan vaxt sənə bəs etdimi?***

– Abituriyentlər üçün ayrılan 3 saatın əhəmiyyəti çox böyükdür. Demək olar ki, gələcək taleyimiz bu müddətdə həll olunur. Ona görə də ayrılmış vaxtdan maksimum yararlandım. Sınaq imtahanlarında iştirak etməyim mənə bu sahədə çox kömək etdi. Vaxt bölgüsünü düzgün apardım. İmtahanın başa çatmasına 20 dəqiqə qalanda mən artıq bütün sualları cavablandırmış, üstəlik də onları yoxlamışdım.

***– Dedin ki, sınaq imtahanlarında iştirak etmisən. Bu imtahanların əhəmiyyətini nədə görürsən?***

– Sınaq imtahanlarına ciddi münasibət bəsləmək lazımdır. Şəxsən mən sınaqlara həmişə əsas imtahan kimi yanaşmışam. Sınaq imtahanında iştirak etməklə abituriyent öz hazırlıq səviyyəsinin zəif tərəflərini, hansı fənnə daha çox vaxt ayırmalı olduğunu müəyyən edir. İmtahan şəraitinə uyğunlaşırsan, ona pisxoloji baxımdan hazır olursan. Qəbul imtahanına gedərkən mən bunun artıq son sınaq olduğu qənaətindəydim. Təbii ki, bu sınaq mənim üçün daha ciddi, daha məsuliyyətli bir mərhələ idi.

***– Qəbul imtahanına necə hazırlaşırdın?***

– Aşağı siniflərdən başlayaraq dərslərimi yaxşı oxumuşam. Bütün fənləri eyni səviyyədə öyrənirdim. Dəqiq fənlərə isə marağım daha çox idi. Qəbul imtahanına hazırlaşmağa, demək olar ki, 7-8-ci siniflərdən başlamışdım. Son iki ildə vaxtımın böyük hissəsini oxumağa,

testlərlə işləməyə sərf edirdim. Qarşımda məqsədimə nail olmaq üçün böyük vəzifə dururdu: "Müalicə işi" ixtisasına qəbul olmaq, Prezident təqaüdçüsü şərəfli adını qazanmaq. Son aylarda Bakı şəhərində hazırlıq kursuna yazıldım və burada oxuduqlarımı təkrar etdim. Amma bununla belə mənim uğur qazanmağımda məktəb müəllimlərimin də böyük zəhməti var. Xüsusilə dəqiq fənləri daha dərindən öyrənməyimdə onların xidmətləri çox olub.

*– Seçdiyin IV ixtisas qrupunda hansı fənnə daha çox vaxt ayırırdın?*

Rəyi soruşulanlardan ali təhsil müəssisəsinə daxil olmaqda "Hərbi çağırışdan rəsmi möhlət almaq" amilini əsas götürənlər də olmuşdur. Onlar (10 nəfər) sorğu iştirakçılarının ümumi sayının 0,41%-ni təşkil etmişdir. Sorğu iştirakçılarının "Nə isə başqa bir şey" cavab variantını qeyd edənlər 54 nəfər olmuş (2,24%), 1 nəfər (0,04%) isə bu suala cavab verməmişdir.

Sorğu iştirakçıları **"İxtisas seçiminizə kim və nə təsir etmişdir?"** sualına da təklif olunan cavab variantlarından iki, bəzən də daha artıq variantı, məsələn, "valideynlər və müəllimlər", "valideynlər və qohumlar", "valideynlər və ictimai rəy", "ictimai rəy və "Abituriyent" jurnalı" və s. kombinasiyalı variantları qeyd etmişlər. Bu kombinasiyalardan "İxtisas seçiminə həm valideyinlərin, həm də müəllimlərin təsiri" cavab kombinasiyası üstünlük təşkil etmişdir. İxtisas seçiminə təsir amillərinin anketlərdə qeydedilmə tezliyinə gəlincə, göstərmək lazımdır ki, valideynlərin ixtisas seçiminə təsir etməsi 451 dəfə (28,20%), müəllimlərin təsiri 204 dəfə (12,75%) qeydə alınmışdır. 352 nəfər (22,01%) seçimini müstəqil surətdə etdiyini bildirmişdir. 91 nəfər (5,69%) ixtisas seçimində ictimai rəyi nəzərə aldığını göstərmişdir. 92 nəfər (5,75%) ixtisası "Abituriyent" jurnalının müntəzəm olaraq dərc etdiyi materiallarla tanışlığa istinadən seçdiyini qeyd etmişdir. Bu suala cavab verərkən sorğu iştirakçılarından 133 nəfər (8,31%) dostlarının, 68 nəfər ( 4,25%) qohumlarının tövsiyələrinə əsaslandığını, 78 nəfər (4,87 %) televiziyanın, 28 nəfər (1,75%) internetin onlara təsir etdiyini qeydə almışdır. 11 nəfər (0,68%) təhsil alacağı ixtisası təsadüfi seçdiyini göstərmişdir, 77 nəfər (4,81%) ixtisas seçiminə "nə isə başqa səbəblər"in təsir etdiyini, 25 nəfər (1,56%) bu suala cavab verməkdə çətinlik çəkdiyini bildirmişdir.3 nəfər sualı cavabsız qoymuşdur.

**"Əgər yenidən qəbul olsaydınız, bu ixtisası seçərdinizmi?"** sualı əvvəlki sualla əlaqəlidir. Bu suala verilmiş cavabların təklif olunan cavab variantları arasında paylanma nisbəti göstərir ki, çox böyük əksəriyyət – 1065 nəfər (88,12%) öz ixtisas seçiminin düzgünlüyünə əmindir və bunu "bəli" cavabını seçməklə təsdiqləmişdir. Suala "Xeyr" cavabını verənlər (65 nəfər – 5,28%) və "Cavab verməkdə çətinlik çəkirəm" variantını qeyd edənlər də (95 nəfər – 7,72%) olmuşdur. Bu cür hallar və cavablar müxtəlif səbəblərlə bağlıdır: məsələn, "İxtisas seçimi ərizəsi"ndə 1-ci yerdə göstərdiyi ixtisasa və ya ali məktəbə daxil olmamaq, ödənişli təhsil formalı ixtisasa qəbul olmaq, yaxud ixtisas seçimi zamanı kənar təsir və müdaxilələrlə üzləşmək və s. Rəyi soruşulanlardan 4 nəfəri (0,32%) isə sualı cavalandırmaqdan imtina etmişdir.

**“Son tədris ilində «Abituriyent» jurnalını oxumusunuzmu?”** sualına verilmiş cavablar da maraq doğurur. Sorğu iştirakçılarının 291 nəfəri ( 23,67%) jurnalı mütəmadi oxuduğunu, 828 nəfəri isə (67,37%) jurnalın bəzi saylarını izlədiyini bildirmişdir. Bütövlükdə isə rəyi soruşulanların 91,04%-i “Aituriyent” jurnalının oxucuları olduğunu qeyd etmişdir. 1229 nəfər respodentdən yalnız 103 nəfəri (8,38%) jurnalı oxumadığını bildirmişdir. 7 nəfər isə (0,56%) suala cavab verməmişdir. Cavablardan belə nəticə çıxır ki, “Abituriyent” jurnalı gənclər arasında kifayət qədər nüfuz və etibar qazanaraq, mötəbər və zəngin məlumat mənbəyi kimi onların məlumatlanması və maariflənməsində mühüm rol oynayır.

**“Qəbul imtahanında yaradılan şərait sizi qane etdimi?”** sualını cavablandıranlardan 1124 nəfər (91,45%) yaradılan şəraitdən razı qaldığını bildirmişdir. Yalnız 46 nəfər (3,74%) suala “Qane etmədi” cavabını vermişdir. 50 nəfər (4,06%) isə imtahandan qismən razı qaldığını bildirmişdir. Onlardan bəziləri anketdə cavabları əsaslandırmaq üçün kifayət qədər yer ayrılmasına baxmayaraq bundan yan keçmiş, öz rəylərinə hər hansı tutarlı səbəb göstərməmiş, izah-şərh verməmişlər. Bəziləri isə imtahandakı şəraitin onları qane etməməsini “otaqda nəzarətçilərin imtahana zəif nəzarət etməsi”, “zalda artıq səs-küy olması”, “başına gün düşməsi”, “küçədən səs gəlməsi” və s. kimi səbəblərlə izah etmişlər. Amma təəccüblüdür ki, həmin abituriyentlər sonrakı əlaqəli sualı cavablandırarkən nəzarətçilərin işini yüksək qiymətləndirmişlər. Abituriyentlərin 9 nəfəri ( 0,73%) sualı cavablandırmaqdan imtina etmişdir.

Demək olar ki, eyni mənzərə **“Qəbul imtahanlarının gedişində neqativ hallarla rastlaşdınızmı?”** sualını cavablandırmada da müşahidə olunub. Böyük əksəriyyət (1116 nəfər – 90,80%) imtahanların gedişində neqativ hallarla rastlaşmadığını bildirmişdir. İmtahanda neqativ halla rastlaşdığını bildirənlər də olmuşdur (103 nəfər – 8,38%). Lakin burada da bəzi abituriyentlər öz mövqelərində ardıcıl olmamış, ziddiyyətli cavablar vermiş və yaxud neqativ halın nədən ibarət olduğunu dəqiq və konkret göstərməmiş, cavablarını faktlarla əsaslandırmamışlar, üstəlik də bu hal imtahan nəzarətçilərinə verilən qiymətlərdə adekvat əksini tapmamışdır. Respondentlərdən 10 nəfər (0,81%) suala cavab verməmişdir.

Yuxarıda şərh edilən son iki sual **(“Qəbul imtahanında yaradılan şərait sizi qane etdimi?”, “Qəbul imtahanlarının gedişində neqativ hallarla rastlaşdınızmı?”)** və növbəti **“İmtahan zalında nəzarətçilər imtahanı necə idarə edirdilər?”** sualları məqsəd baxımından əlaqəlidirlər. Abituriyentlərin bir qismi bu əlaqələrə fikir verməmiş və onların mövqelərindəki qeyri-ardıcıllıq və ziddiyyətli məqamlar da elə buradan irəli gəlmişdir. **“İmtahan zalında nəzarətçilər imtahanı necə idarə edirdilər?”** sualına həmin abituriyentlərin verdiyi qiymətləndirmə cavabları da bu deyilənləri təsdiqləyir. Belə ki, rəyi soruşulan1229 nəfərdən yalnız 16-sı (1,30%) nəzarətçilərin işini mənfi qiymətləndirmiş, 5 nəfər (0,48%) suala cavab verməmişdir. Deməli, faktiki olaraq 1229 nəfərdən 1084 nəfər (88,20%) imtahan nəzarətçilərinin işinə müsbət qiymət vermişdir. Qiymətlərdən 785-i (63,87%) “əla”, 299-u (24,32%) “yaxşı”, 95-i (7,72%) “kafi” olmuşdur. Nəzarətçilərin işinə mənfi qiymət verənlərin qiymətləndirmə prinsiplərində də ziddiyyətli cəhətlər özünü göstərir. Məsələn, abituriyentlər tərəfindən nəzarətçiyə irad tutulur, imtahanın gedişində neqativ hal olduğu qeyd edilir, amma qiymətləndirmədə ona “kafi”, hətta “yaxşı” qiymət verilir. Yaxud da şəraitin qənaətbəxş olduğunu, neqativ hallarla rastlaşmadığını, nəzarətçilərə heç bir əsaslı iradları

olmadığını bildirən bir neçə abituriyent nəzarətçilərə aşağı qiymət vermişdir. Bu mənada, verilən ən aşağı qiymətlərin meyarını müəyyənləşdirmək və izah etmək çətinlik yaradır.

**"İmtahana düşən sualların məzmunu barədə nə deyə bilərsiniz?"** sorğusuna 1077 nəfər (87,63 %) müsbət cavab verərək sualların proqram materiallarını əhatə etdiyini qeyd etmişdir. Qalan 152 nəfərin ( 12,36 %)13-ü (1,05%) sualların proqramı əhatə etmədiyini bildirmiş, 131 (10,65 %) nəfər qismən əhatə etdiyini qeyd etmiş, 18 nəfər (0,65 %) isə sualı cavabsız qoymuşdur.

Sorğuda abituriyentlərin **açıq tipli test tapşırıqlarına münasibəti də** öyrənilmişdir. Onların 337 nəfəri (27,42%) açıq tipli test tapşırıqlarına müsbət münasibət bildirmişdir. Fikirlərini belə əsaslandırmışlar ki, bu tipli testlər abituriyentlərin təfəkkürünü, düşüncə və mühakimə qabiliyyətini inkişaf etdirir, onları əzbərçilikdən uzaqlaşdırır, gənclərin biliklərini daha dəqiq və düzgün qiymətləndirməyə imkan verir. Bu fikirdə olan abituriyentlər açıq tipli test tapşırıqlarının digər fənlər üzrə də test blokuna salınmasını məqbul saymışlar, lakin onlardan bəziləri cavablarına onu da əlavə etmişlər ki, bu halda imtahanın vaxtının uzadılması məqsədəuyğun olar. Abituriyentlərdən 642 nəfər (52,23%) açıq tipli testlərin digər fənlər üzrə test blokuna salınmamasını qeyd etmişdir. Onlar bunun səbəbini, əsasən, vaxt amili ilə əlaqələndirmiş və bildirmişlər ki, açıq tipli testlərin həlli xeyli vaxt itkisinə səbəb olur. Onların fikrincə, açıq tipli testlər digər fənlər üzrə test blokuna da daxil edilərsə, onda imtahana ayrılan müddət də müvafiq şəkildə nəzərə alınmalıdır. Göründüyü kimi, hər iki halda başlıca amil kimi vaxt amili önə çəkilir və abituriyentlər bütövlükdə açıq tipli testlərin digər fənlər üzrə test blokuna salınmasının əleyhinə olmadığını ifadə edirlər. "Digər cavab" bəndini seçənlər 103 nəfər (8,38%) olmuşdur. Lakin onların, demək olar ki, heç biri öz mövqe və münasibətini əsaslandırmamışdır. 25 nəfər (2,03%) abituriyent bu sualı cavablandırmaqdan imtina etmişdir.

**"İmtahan suallarının çətinlik dərəcəsi barədə fikriniz"** sualına abituriyentlərdən 841 nəfər (68,42%) sualların çətin olmadığını, 147 nəfər (11,96%) çətin olduğunu bildirmişdir. Sualların çətinlik dərəcəsinin artırılması və azaldılmasına müasibət belə olmuşdur: 94 nəfər (7,64%) sualların çətinlik dərəcəsinin artırılmasını, 140 nəfər (11,39 %) azaldılmasını təklif etmişdir. 7 nəfər ( 0,56%) sualı cavablandırmamışdır.

**"İmtahan vaxtı barədə nə deyə bilərsiniz?"** sualına da cavablar maraqlı olmuşdur. Abituriyentlərin 1020 nəfəri ( 82,99%) hesab edir ki, qəbul imtahanına ayrılan vaxt kifayət qədər idi. 58 nəfər (4,71%) abituriyent imtahanda test tapşırıqlarını cavablandırmaq üçün ayrılan vaxtın çox olduğunu, 139 nəfər ( 11,31%) az olduğunu bildirmişdir. 11 nəfər (0,89 %) suala cavab verməkdən imtina etmişdir.

Abituriyentlər imtahan suallarının sayı barədə də rəylərini bildirmişlər. Sorğuda iştirak edən 1229 nəfərin 1158-i (94,22%) sualların sayının kifayət qədər olduğunu, cəmi 48 nəfər (3,90%) çox olduğunu, 18 nəfər isə (1,46 %) az olduğunu qeyd etmişdir. 5 nəfər ( 0,40%) suala cavab verməmişdir.

**Anket sorğusunda yüksək nəticəli gənclərə qəbul imtahanına hazırlıqla bağlı öz iş təcrübələri barədə fikirlərini, gələcək abituriyentlərə məsləhət və tövsiyələrini bildirməyə də imkan yaradılmışdı. Aşağıda bununla bağlı cavablardan daha çox diqqət çəkən nümunələri təqdim edirik.**

## Bilik yarışı öncüllərinin gələcək abituriyentlərə məsləhət və tövsiyələri

***Əkbərova Zərinə (I qrup, 682) -*** Çox oxumağı və keçilən mövzuları tez-tez təkrar etməyi tövsiyə edirəm.

***Əliyeva Raziyə (I qrup, 679 )*** – Məsləhət görürəm ki, özlərinə güvənsinlər. Unutmasınlar ki, çəkilən əziyyət heç vaxt yerdə qalmır.

***Hüseynli Emin (I qrup, 677) -*** Aşağı siniflərdən müəyyən bilik bazasına malik olmaq əsas amillərdən biridir. Hazırlıq müddətində müəllimlərdən öyrənməklə yanaşı müstəqil surətdə çalışmaq bacarığına yiyələnin. Zəif bildiyiniz mövzulara daha çox diqqət yetirin. İmtahana məqsədyönlü və planlaşdırılmış şəkildə hazırlaşın.

***Orucov Bəxtiyar (I qrup, 675) -*** Qəbul imtahanına hazırlaşarkən vaxtınızdan səmərəli istifadə edin. Hər gün hansı fənnə nə qədər vaxt sərf edəcəyinizi əvvəlcədən, bunu planlaşdırın. Planlı və sistemli çalışın. Ən önəmlisi isə özünə inamlı olmaqdır.

***Hüseynli Nuranə (I qrup, 672) -*** Çox oxusunlar, öyrənsinlər, öyrəndiklərini təhlil etsinlər. Vaxtlarını hədər yerə sərf etməsinlər.

***Tapdıqzadə Azər (I qrup, 659) -*** Məsləhət görürəm ki, abituriyentlər mövzuları təhlil edərək oxusunlar, hər bir şeyin səbəbini tapmağa çalışsınlar. Bu yolla əzbərçilikdən uzaq olar, analitik düşüncəyə yiyələnərlər.

***İsmayılzadə Cəmil (I qrup, 657) -*** Əgər oxumağa həvəsiniz varsa, çalışın yüksək nailiyyət əldə edəsiniz. Əgər oxumağa həvəsiniz yoxdursa, valideynlərin təzyiqi altında oxuyursunuzsa, onda onları inandırın ki, bu sahəyə marağınız yoxdur. Həvəsiniz hansı sahəyədirsə, onu da seçin. Çünki istəmədiyiniz ixtisasa qəbul olsanız, gələcəkdə o sahədə uğur qazana bilməyəcəksiniz.

***Abdullayev İlkin (I qrup, 654) -*** İlk öncə özünüzə güvənin. Əmin olun ki, imtahana düşən bütün suallar sizin məktəb dərsliyinizdəki mövzulardan seçilmişdir. Çox oxuyun, çox çalışın. Belə olarsa, bütün uğurlar sizinlə olacaqdır.

***Əsədov Rauf (I qrup, 652) -*** Məsləhətim budur ki, yaxşı nəticə əldə etmək üçün məqsədyönlü çalışsınlar, vaxtlarından səmərəli istifadə etsinlər. Sosial şəbəkələr, televizor və kompüterdən az istifadə etsinlər. Yaxşı nəticə əldə etməyin yollarından biri də çoxlu test tapşırığı həll etməkdir. Bununla abituriyent oxuduğu mövzunu daha yaxşı qavrayıb yadda saxlayır.

***Zülfüqarova Gözəl (I qrup, 642) -*** İlk öncə müəllim-valideyn əlaqəsi sıx olmalıdır. Bununla yanaşı, abituriyentin özü də işinə məsuliyyətlə yanaşmalıdır.

***Musayeva Lalə (I qrup, 637) -*** Dərslərə ciddi yanaşmaq, müəllimlərin tapşırıqlarına əməl etmək, daim öz üzərində çalışmaq, keçilən mövzular üzrə təkrarlara diqqət yetirməklə uğur əldə etmək olar!

***Əzizli Xəyal (I qrup, 619) -*** Qəbula hazırlaşmaq üçün ən vacibi iradəli və əzmkar olmaqdır. Nə qədər çox çalışsanız, uğura bir o qədər yaxın olarsınız.

***Bədəlov Turxan (I qrup, 616) -*** Əziz abituriyentlər, olimpiadalarda, müsabiqələrdə iştirak edin.

***Babayev Kənan (I qrup, 611) -*** Çoxlu oxumağı, biliklərə dərindən yiyələnməyi, sınaq imtahanlarında mütəmadi iştirak etməyi və imtahan zamanı həyəcanlanmamağı məsləhət görürəm.

***Ələkbərova Məryəm (I qrup, 601) -*** Qəbul imtahanlarına yaxşı hazırlaşmaq üçün məktəb illərində hər bir fənnə diqqət və məsuliyyətlə yanaşmağı tövsiyə edirəm.

***Hacızadə Elvin (II qrup, 695) –*** Tövsiyəm odur ki, davamlı və sistemli şəkildə çalışsınlar. Cavab kartını dolduranda sürüşdürməyə yol verməsinlər. Çünki mən bir cavabı sürüşdürdüyümə görə 5 bal itirdim və nəticədə, 700 bal əvəzinə, 695 bal yığmış oldum.

***Rüstəmzadə Fərid (II qrup, 682) —*** Mövzuları tam mənimsəməyə, ətraflı təhlil etməyə diqqət verin. Hər bir testi işləyəndə sualları diqqətlə araşdırsanız, düzgün cavabı tapmaqda çətinlik çəkməzsiniz. Uğur qazanmaq üçün təkcə çox oxumaq deyil, həm də psixoloji hazırlıq, nikbin əhval-ruhiyyə, güvənc də rol oynayır. Mən qəbul imtahanı keçirilən gün səhər dəniz sahilində günəşin doğuşunu izlədim. Bu mənzərə məndə yüksək ovqat yaratdı.

***Həmzəyeva İnarə (II qrup, 681) —*** Aşağı siniflərdən yaxşı oxumaq lazımdır. Bütün gün ərzində oxumaq da düzgün deyil, istirahətə də yer verilməlidir. Çalışın ən azı bir il internetdən, sosial şəbəkələrdən istifadə etməyin. Qəbul imtahanına 1-2 gün qalmış oxumaq məsləhət deyil. Məncə, abituriyent imtahana nikbin əhval-ruhiyyə ilə getməlidir, çünki imtahan zamanı həyəcanlı olmaq yaxşı nəticə göstərməyə mane ola bilər.

***Zeynalov Bəxtiyar (II qrup, 677) –*** Dərslərini diqqətlə, həvəslə oxusunlar, təkrarlara fikir versinlər. Ancaq imtahana hazırlıq dönəmində istirahətə də vaxt ayırsınlar.

***Əliyeva Tubu (II qrup, 672) –*** Yüksək bilik qazanmaq təkcə müəllimdən yox, həm də abituriyentin özündən asılıdır. Əgər səylə çalışsanız, qəbulda yaxşı nəticə əldə etmiş olacaqsınız. Odur ki, özünüzə inanın, amma heç vaxt arxayınlaşmayın.

***Orucova Şəfa (II qrup, 672) –*** Qəbula hazırlıq dövründə vaxtınızı düzgün bölmək üçün cədvəl hazırlayın. Bu cədvəl günlük, həftəlik, aylıq da ola bilər. Ümumiyyətlə, vaxtınızı boş-boşuna xərcləməyin, əksinə, onun qədrini bilin.

***Əliyev Əlbəşir (II qrup, 670) –*** Abituriyent gərək çox və dərindən oxusun, hər şeyi başa düşməyə çalışsın. Özünə inamlı və iradəli olsun.

***Süleymanova Vüsalə (II qrup, 667)*** – Abituriyentdə planlı şəkildə hazırlaşmaq, hər şeyi öyrənmək həvəsi və özünəinam hissi olmalıdır.

***Nəsrullayev Pərvin (II qrup, 665)*** – Əzmkar olun və qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün var gücünüzlə çalışın. Vaxt itkisinə yol verməyin, boş vaxtlarınızda isə təmiz havaya çıxın, istirahətə də vaxt ayırın.

***Vəliyeva Nigar (II qrup, 662)*** – Çox oxumaq, diqqətli olmaq, həyəcanlanmamaq, vaxtdan səmərəli istifadə etmək və suallara məntiqlə yanaşmağı məsləhət görürəm.

***Bəşirli İlkin (II qrup, 659)*** – Dərslərə həmişə həvəslə yanaşsınlar. Belə olduğu təqdirdə uğur qazanacaqlar.

***Abdullayev Pərviz (II qrup, 655)*** – "Hələ vaxtım var", - deyə heç vaxt arxayınlaşmayın. Telefondan, kompüterdən bacardığınız qədər uzaq olun. Sınaq imtahanlarında çox iştirak edin. Bu, imtahan həyəcanınızın azalmasına kömək edəcəkdir.

***Qasımova Samirə (II qrup, 654)*** – Hansı fənnə nə qədər vaxt ayıracaqlarına dair özləri üçün gündəlik plan hazırlasınlar. Ən əsası isə imtahanda uğur qazanacaqlarına inansınlar.

***Kərimova Aytən (II qrup, 652)*** – Hər bir şagird dərslərini məktəb illərində yaxşı oxumalı, repetitor yanına getməklə hər şeyi öyrənəcəyini gözləməməlidir. Bütün materialları yüksək səviyyədə oxuyub təkrarlamalı, qarşılarına çıxan çətin sualları müəllimlərindən soruşmalı, bilik və bacarıqlarından düzgün istifadə etməlidirlər.

***Mustafayev Tərlan (II qrup, 652)*** – Əziz abituriyentlər, imtahanı həyatınızın ölüm-qalım məsələsinə çevirməyin. Nəzərə alın ki, məqsəd ali təhsil diplomu almaq yox, yaxşı mütəxəssis olmaqdır. Sadəcə olaraq, hər şeyin yaxşı, səviyyəli olmasına çalışın.

***Qasımbəyli Nuray (II qrup, 642)*** – Gələcək abituriyentlərə sağlamlıqlarına zərər verməyəcək şəkildə ciddi çalışmağı, qəbula hazırlıq ərəfəsində özlərinə istirahət üçün vaxt da ayırmağı məsləhət görərdim.

***Məmmədova Türkan (II qrup, 639)*** – Əziz abituriyentlər, səbirli olun, pozitiv düşünün, özünüzü qorxutmayın və həyəcanlanmayın. Uğurlar!

***Əfəndiyeva Leyla (II qrup, 634)*** – Şagird dostlar, qəbul imtahanında müvəffəqiyyət qazanmaq üçün təkcə son siniflərdə çalışmaq kifayət deyil, bütün məktəb illərində yaxşı oxumaq lazımdır. Onda imtahan zamanı heç bir əziyyət çəkməzsiniz.

***Məhərrəmli Aytən (II qrup, 634)*** – Abituriyentlərə dərslərinə daha diqqətlə yanaşmağı, hər hansı bir mövzunu bir neçə mənbədən öyrənməyi və oxuduqlarını təkrarlamağa çox vaxt ayırmağı tövsiyə edirəm.

***Nərimanlı Xəzər (II qrup, 629)*** – Məsləhətim odur ki, imtahana az vaxt qalanda yeni əlavə material oxumaqdansa, öyrəndiklərini təkrarlasınlar. Mövzularla bağlı çoxlu sayda test işləsinlər.

***Allahverdiyeva Aynur (II qrup, 629)*** – Bol-bol çalışmaq və özünəinam lazımdır. Unutmayın ki, insan bir şeyi çox istəsə, ona nail ola bilər. Yetər ki, istəyəsən və bütün imkanlarını səfərbər edib çalışasan.

*Quliyev Hikmət (II qrup, 627)* – Test banklarını təkrar-təkrar işləmək, TQDK-nın nəşr etdiyi test toplularından istifadə etmək, əlavə ədəbiyyatlardan yararlanmaq və öyrənilən bölmələri mütəmadi təkrarlamaq lazımdır.

*Cəbiyev Tərlan (II qrup, 620)* – Tövsiyə edərdim ki, qarşılarına aydın məqsəd qoyaraq çalışsınlar və istəklərinə nail olacaqlarına inansınlar.

*Ələsgərov Əli (II qrup, 619)* – Ən əsas məsələ vaxtın düzgün bölünməsidir, istər hazırlıq dövründə, istərsə də imtahanda. Bir məsləhət də görərdim: yaxşı bildiyiniz fənn üzərində elə işləyin ki, həmin fənn üzrə nəticə 100 faiz olsun.

*Əlizadə Turanə (II qrup, 613)* – Yüksək bal toplamaq üçün məqsədyönlü çalışsınlar, özlərinə inansınlar. Sınaq imtahanlarında mütəmadi iştirak etsinlər.

*Axundzadə Fərəh (II qrup, 611)* – Özləri üçün rasional proqram qurmalı, hər bir fənnə müəyyən vaxt ayırmalı və qurduqları proqrama hər gün riayət etməlidirlər. Dərsləri diqqətlə oxumalı, qeydlər aparmalıdırlar. Təbii ki, istirahətə də müəyyən vaxt ayırmalıdırlar.

*Hacı Qurbanlı (II qrup, 607)* – Qəbul imtahanında uğur qazanmaq üçün çox oxumaq yox, keyfiyyətli oxumaq əsas şərtdir.

*Sadıqova Şəbnəm (II qrup, 604)* – Mən abituriyentlərə məsuliyyətli olmağı, bütün fənlərə eyni diqqət və məsuliyyətlə yanaşmağı, dəqiq proqram əsasında çalışmağı, vaxtı düzgün bölməyi tövsiyə edirəm.

*Hüseynli Aytən (III qrup, 670)* - Yüksək nəticə əldə etmək üçün abituriyent məqsədli və planlı şəkildə çalışmalıdır. Hədəfi düzgün müəyyənləşdirməli, potensialından maksimum istifadə etməlidir.

*Vəliyeva Fidan (III qrup, 670)* - Səbrli olsunlar, qarşılarına aydın məqsəd qoysunlar və buna çatmaq üçün kənar mənfi təsirlərə məruz qalmadan səylə çalışsınlar. TQDK-nın vəsaitlərindən istifadə etsinlər. Unutmasınlar ki, çəkilən əziyyət heç vaxt itmir.

*Əlibəyli Günay (III qrup, 667)* - Məsləhətim budur ki, ixtisas seçimini öz arzularına uyğun etsinlər. Hazırlıq müddətində vaxtı düzgün bölsünlər, istirahətə də vaxt ayırsınlar.

*Sayılova Şəhla (III qrup, 665)* - İlk növbədə, məqsədlərini dəqiqləşdirməli, çox çalışmalıdırlar.

*İsayeva Səbinə (III qrup, 663)* - Gələcək abituriyentlərə tövsiyə edirəm ki, vaxtlarından səmərəli şəkildə istifadə etsinlər. Asudə vaxtlarında yorucu işlərlə məşğul olmasınlar. Müəllimlərinin tapşırıqlarını mütəmadi yerinə yetirsinlər. Ən əsası isə qarşılarına konkret məqsəd qoyub əzmlə çalışsınlar.

*Abbaslı Fidan (III qrup, 663)* - Məktəbdə tədris edilən materialları yaxşı mənimsəsinlər. Bu, onların qəbul imtahanında daha yaxşı nəticə göstərmələri üçün ən başlıca şərtdir.

*Səfərli Günay (III qrup, 663)* - Qəbul imtahanına hazırlıq zamanı son dərəcə diqqətli olmaq, mövzuları daha yaxşı mənimsəmək üçün testlər üzərində işləmək lazımdır. Uğur qazanmaq üçün məsuliyyətli və özünə tələbkar olmaq vacib şərtdir. Fikrimcə, zehni hazırlıqla yanaşı,

psixoloji cəhətdən də hazırlıqlı olmaq önəmlidir.

*Məmmədli Şahanə (III qrup, 661)* –Qəbula ciddi hazırlaşsınlar. Hər şeydən əvvəl, özlərinə inamlı olsunlar. Bilik və bacarıqlara yiyələnməkdən bezməsinlər. Bilsinlər ki, hər bir uğurun arxasında zəhmət dayanır.

*Nəsibli Firuzə (III qrup, 660)* - Aşağı siniflərdən başlayaraq bütün fənləri yaxşı oxumaq, qəbul imtahanına hazırlaşarkən çoxlu test tapşırıqları həll etmək lazımdır.

*Cavadova Günay (III qrup, 656)* - Məsləhət görürəm ki, dərslərini yaxşı oxusunlar, məqsədlərini müəyyənləşdirib ona çatmaq üçün ciddi çalışsınlar. Bir müdrikin dediyi bu kəlamı yadda saxlasınlar: "Gedəcəyi limanı bilməyənə heç bir rüzgardan xeyir gəlməz".

*Şahməmmədova Xumar (III qrup, 641)* - Gələcək abituriyentlərə qəbula hazırlıq zamanı sistemli, müntəzəm və səylə çalışmalarını məsləhət görürəm. Müvəffəqiyyətə çatmaq üçün çox əmək sərf etmək lazımdır.

*Bəhmənov Rahim (III qrup, 640)* - Məsləhət görərdim ki, vaxtlarını boşuna sərf etməsinlər, daima öyrənsinlər. İstirahətə də vaxt ayırsınlar.

*Osmanova Nigar (III qrup, 630)* - Gələcək abituriyentlərə məsləhətim budur ki, imtahana ciddi hazırlaşsınlar, öz biliklərinə güvənsinlər.

*Hümbətli Camal (III qrup, 627)* - Dərslərə sistemli şəkildə hazırlaşsınlar. Unutmasınlar ki, uğurun açarı hər kəsin öz əlindədir.

*Şirinova Xumar (III qrup, 627)* - Hazırlıq müddətində əlavə məşğuliyyətlərdən uzaq olsunlar, yalnız dərslərinə fikir versinlər. Əsas şərt çox oxumaq deyil, oxuduğunu yaxşı dərk etməkdir.

*Əliyeva Aynurə (III qrup, 627)* - Məsləhət görürəm ki, dərslərə sistemli hazırlaşsınlar.

*Abbaslı Nəzrin (III qrup, 625)* - TQDK-nın keçirdiyi sınaq imtahanlarında mütəmadi iştirak etsinlər. Dərslərə diqqətlə, məsuliyyətlə yanaşsınlar.

*Mustafazadə Şövkət (III qrup, 621)* - İmtahana ciddi hazırlaşın, yalnız dərslikləri oxumaqla kifayətlənməyin, test tapşırıqları üzərində çox işləyin, biliyinizi düzgün tətbiq etməyi öyrənin. İmtahan öncəsi səbirli olun, həyəcan keçirməyin, çünki bu, nəticənizə mənfi təsir göstərə bilər.

*Rüstəmzadə Sahibə (III qrup, 611)* - Repetitor və ya hazırlıq kursları ilə kifayətlənməyin, öz üzərinizdə müstəqil çalışın, əlavə materiallardan çox istifadə edin. Bununla yanaşı, asudə vaxtınızdan səmərəli istifadə edin.

*Məmmədli Aydan (III qrup, 609)* - Aşağı siniflərdən bütün fənlərə diqqət yetirin.

*Məmmədova Nərmin (III qrup, 606)* - Vaxtlarını dəqiq bölüşdürsünlər, cədvəl üzrə hazırlaşsınlar, istirahətə, dincəlməyə də vaxt ayırsınlar. Bu zaman öyrəndikləri yaddaşlarında daha yaxşı qalacaq və istədikləri nəticəni əldə edə biləcəklər.

*Sadıqova Tünzalə (III qrup, 605)* - Sınaq imtahanlarında müntəzəm iştirak etsinlər. Məktəb dərslərini buraxmasınlar, dərslərdə hər gün iştirak edib mütəmadi hazırlaşsınlar. Çoxlu test tapşırıqları həll etsinlər.

*Ağazadə Nadir (IV qrup, 677)* - Hər hansı mövzunu dərindən mənimsəmək üçün aşağı siniflərdən yaxşı oxumaq lazımdır. Qəbula hazırlıq dövründə hədəfi dəqiq müəyyən etmək və ona doğru inamla irəliləmək lazımdır. Gün ərzində istirahətə də vaxt ayrılmalıdır.

*Abduləliyeva Ayan (IV qrup, 677)* - Vaxtdan səmərəli istifadə etsinlər, dərslərə sistemli hazırlaşsınlar və istirahətlərini də düzgün təşkil etsinlər.

*Hüseynbəyli Heydər (IV qrup, 672)* - Məsləhət görərdim ki, gün ərzində dərslərinə daha çox vaxt ayırsınlar və sınaq imtahanlarında mütəmadi iştirak etsinlər.

*Əliyeva Lamiyə (IV qrup, 672)* - Hər şeydən öncə, qarşıya dəqiq və aydın məqsəd qoyulmalıdır. Aşağı siniflərdən müəyyən bilik bazasına yiyələnmək lazımdır. Unutmayaq ki, repetitorla hazırlaşmaq hələ tam hazırlıqlı olmaq demək deyil. Hər şey insanın özündən asılıdır.

*Pirməmmədova Fidan (IV qrup, 672)* - I sinifdən XI sinfə kimi dərslərə ardıcıl, sistemli hazırlaşsınlar. Qəbulda yüksək nəticənin əsası budur.

*Həsənova Aysel (IV qrup, 669)* - İlk növbədə, məqsədinə nail olmaq üçün bütün gücünlə çalışmalısan. Qəbula hazırlıq müddətində kənar məşğuliyyətlərdən uzaq olmalı, bütün fikrini dərsə yönəltməlisən. Mütəmadi təkrarlamalara üstünlük verməlisən.

*Ağayeva Mələk (IV qrup, 665)* - Məsləhətim budur ki, dərslərinə lazımınca diqqətli olsunlar. Vaxtı düzgün bölməyi öyrənsinlər. Bu, qəbul imtahanında onlara çox kömək edəcək.

*Namazova Sevinc (IV qrup, 664)* - Gələcək abituriyentlərə məsləhət görürəm ki, yüksək nəticə əldə etmək üçün dərslərini sistemli şəkildə öyrənsinlər. Həm çalışmaq, həm də istirahət üçün özlərinə vaxt rejimi qursunlar.

*Kərimli Rüstəm (IV qrup, 662)* - Hər bir abituriyent vaxtını elə bölüşdürməlidir ki, həm oxumağa, həm də istirahətə vaxtı çatsın. Sadəcə, repetitorla hazırlaşmaqla kifayətlənməyib daima öz üzərlərində çalışmalıdır.

*Məmmədzadə Aytac (IV qrup, 658)* - Məncə, ən birinci şərt iradəli olmaqdır. Gərək abituriyent özünə, öz biliyinə inansın, inadkar və iradəli olsun. Xüsusilə də dərslikləri diqqətlə oxumaq lazımdır. Hər xırda detala fikir vermək lazımdır. Yaxşı olar ki, dərsliklərdən öyrəndiklərini əlavə vəsaitlərlə möhkəmləndirsin.

*Abuzərli Pərvin (IV qrup, 650)* - Aşağı siniflərdən bütün fənləri dərindən öyrənsələr, X və XI siniflərdə dərsləri rahat surətdə təkrar edə bilərlər.

*Mehtiyeva Mehin (IV qrup, 649)* - Qarşılarına gücləri çata bilən real məqsəd qoyub, ona nail olmaq üçün əzmlə çalışsınlar. Yuxarı siniflərdə TQDK-nın keçirdiyi sınaq imtahanlarında iştirak etsinlər. "Abituriyent" jurnalının bütün nömrələrini alıb, oradakı məlumatları oxusunlar, TQDK-nın internet səhifəsini mütəmadi izləsinlər.

*Səmədli Elnarə (IV qrup, 645)* - Dərslərini aşağı siniflərdən yaxşı oxusunlar. Dərs

vəsaitlərindən, xüsusilə də TQDK-nın nəşr etdiyi vəsaitlərdən daima istifadə etsinlər.

*Quliyev Atilla (IV qrup, 644)* - Qəbula ciddi hazırlaşsınlar, oxuduqlarını təkrar etməyə də vaxt ayırsınlar, dərsliklərdən başqa əlavə vəsaitlərlə də tanış olsunlar.

*Vəliyeva Sevinc (IV qrup, 642)* - Tələbə adını qazanmaq istəyən hər bir abituriyent çox çalışmalı, vaxtdan səmərəli istifadə etməli, seçimini düzgün və dəqiq etməlidir.

*Qasımova Məsmə (IV qrup, 633)* - Hazırlıq müddətində hər saniyənizin dəyərini bilin. Hər zaman bilik öyrənməyə çalışın. Əzmlə, iradəylə məqsədinizə doğru irəliləyin.

*Rəhimova Səriyyə (IV qrup, 627)* - Qəbula hazırlaşan hər bir abituriyentin kifayət qədər bilik bazası olmalıdır. Bunun üçün dərslərlə aşağı siniflərdən ciddi məşğul olmaq lazımdır. Yuxarı siniflərdə isə hər bir dəqiqənin qədrini bilməli, daha çox çalışmalıdır ki, uğurlu nəticəyə imza atsın.

*Əmirova Günel (IV qrup, 615)* - Məsləhətim budur ki, qəbula ciddi və məsuliyyətlə yanaşsınlar. İmtahanda vaxtdan səmərəli istifadə etsinlər və həyəcanlanmasınlar.

*Abdullayeva Fəridə (IV qrup, 609)* - Uğura aparan yol zəhmətdən keçir. Güclü iradəniz olsa, hətta repetitorsuz da 600-dən çox bal toplaya bilərsiniz. Mən topladığım kimi.

*Sadıxova Könül (IV qrup, 608)* - Təhsil aldığı illərin qədrini bilsinlər. Bütün tədris illərində eyni məsuliyyətlə çalışsınlar. Çoxlu test tapşırıqları həll etsinlər və TQDK-nın keçirdiyi bütün sınaq imtahanlarında iştirak etsinlər.

**Anket sorğusu iştirakçılarına "Əlavə demək istədiyiniz fikirlər, arzular, təkliflər" xitabı ilə müraciət olunmuşdu. Aşağıda həmin müraciətə cavablardan daha çox maraq doğuran nümunələri təqdim edirik:**

## Rəylər, təkliflər, arzular

***İmanov Tərxan (I qrup, 679) -*** Sınaq imtahanlarının sayı artırılsın və tarixləri də qəbul imtahanının keçiriləcəyi vaxta yaxın olsun.

***Qasımova Səbinə (I qrup, 672) -*** Arzum budur ki, qəbul olan gənclərimiz ali təhsil müəssisəsini də əla qiymətlərlə oxuyub ixtisaslarına uyğun işlə təmin olunsunlar. Bu, gələcək abituriyentlər üçün ən yaxşı nümunə olardı.

*Əlimərdanlı Oruc (I qrup, 672)* – Bəzən imtahan keçirilən otaqlar dar və isti olur. Yayın dözülməz istisində dar otaqda 28-30 nəfərin yerləşdirilməsi abituriyentlər üçün çətinliklər törədir. Gələcəkdə belə vəziyyətlərə diqqət yetirilməsini xahiş edirəm.

***Məmmədova Raida (I qrup, 661) -*** Müəllimlərimizin maaşları artırılsa, təhsilin keyfiyyəti də yüksələr, müəllimlər daha həvəslə, səylə dərs keçərlər.

***Musayeva Lalə (I qrup, 637) -*** Fənlər üzrə dərs vəsaitlərinin qiymətləri aşağı salınarsa, abituriyentlərin onları lazım olan sayda əldə etməsi mümkün olar.

*Əsədov Rauf (I qrup, 652) -* Yaxşı olardı ki, buraxılış imtahanları ilə qəbul imtahanı bir gündə keçirilsin. Bununla, həm abituriyentin vaxtına, həm də dövlət büdcəsinə qənaət edilmiş olar.

*Manafova İlahə (I qrup, 648) -* I ixtisas qrupunda riyaziyyat, fizika, kimya ciddi riyazi bilik və hesablamalar aparmaq tələb edən fənlər olduğu üçün qəbul imtahanına ayrılan vaxtın artırılmasını istərdim.

*Baybekov Şamxal (I qrup, 643) -* Rus bölməsində ana dilindən tərtib edilmiş suallar məni qane etmədi. Məncə, dərsliklərdəki bütün mövzular əhatə olunmamışdı.

*Babayev Kənan (I qrup, 611) -* Tələbə adını qazandığım üçün çox xoşbəxtəm və bütün abituriyentlərə tələbə adını qazanmağı arzulayıram.

*Qafarlı Selcan (II qrup, 695)* – Qəbul imtahanlarının abituriyentlərin öz regionlarında keçirilməsini düzgün hesab edirəm və yüksək bal toplamağımda bunun böyük rol oynadığını düşünürəm.

*Rüstəmzadə Fərid (II qrup, 682)* – Son dövrlərdə aparılan təhsil islahatlarının daha da intensivləşdirilməsini istərdim. Qiymətləndirmədə şagirddən əzbərçilik deyil, məntiqi təhlil, ətraflı araşdırma tələb edən suallardan istifadə olunması onun gələcək inkişafına daha böyük fayda verər.

*Mikayıllı Mikayıl (II qrup, 680)* – İstərdim ki, 6-cı sinifdən başlayaraq hər il ən azı 8-9 fəndən mərkəzləşdirilmiş qaydada imtahanlar keçirilsin. Belə olduqda təhsilin inkişafına balta vuran "qaranlıq" müəllim-şagird münasibətləri də düzələr. Müəllim istəsə də şagirdə yalançı, şişirdilmiş qiymət yaza bilməz, şagird isə məcbur olub oxuyar.

*Əhmədli Cavid (II qrup, 675)* – Abituriyentlər ixtisas qruplarını başqalarının təsiri altına düşmədən özləri seçsinlər.

*Əliyeva Tubu (II qrup, 672)* – Bütün imtahan nəzarətçiləri qəbul qaydalarına, təlimatlara əməl etsələr, neqativ hallara yer qalmaz.

*Vəliyeva Nigar (II qrup, 662)* – İmtahan zamanı köçürmə hallarına qarşı nəzarəti daha da gücləndirməyi tövsiyə edirəm. Belə neqativ hallar, məncə, abituriyentlərin biliyinin düzgün qiymətləndirilməsinə mane olur.

*Əliyev Eldəniz (II qrup, 657)* – İstərdim ki, gələcəkdə ümumtəhsil məktəblərində verilən təhsil elə bir səviyyəyə çatsın ki, repetitorlara ehtiyac olmasın.

*Qasımova Samirə (II qrup, 654)* – Ali məktəblərə qəbul prosesində yaradılan şəffaflıq üçün TQDK-ya minnətdaram.

*Mustafayev Tərlan (II qrup, 652)* – Mümkünsə, sual kitabçaları rəngli çap edilsin. Onsuz da imtahan zamanı yetərincə həyəcanımız olur. Bir də ki, buraxılış rejimi zamanı abituriyentlərlə mümkün qədər nəzakətli rəftar olunsun. Bütün abituriyentlərə köməkçi vasitələrin daşıyıcısı kimi yanaşılmasın.

*Ağaverdiyeva Safura (II qrup, 646)* – Qəbul imtahanlarındakı nəticələr hesablanılarkən attestat qiymətlərinin nəzərə alınmasını istərdim.

***Həsənzadə Rəmail (II qrup, 644)*** – Gələcəkdə ali məktəblərə qəbulun buraxılış imtahanlarının nəticələrinə əsasən həyata keçirilməsini istərdim.

***Müslümsadə Nicat (II qrup, 644)*** – Abituriyentlərin imtahana psixoloji və texnoloji cəhətdən daha mükəmməl hazırlaşmaları üçün sınaq imtahanlarının sayı artırılsın.

***Babayeva Nərmin (II qrup, 643)*** – İnsana uğur onu əvvəldən məqsəd kimi seçəndə gəlir. Ən önəmlisi olan isə qətiyyətli olmaqdır. Səhvləri nəzərdən keçirib onların üzərində işləmək də çox vacibdir. Fikrimcə, təhsildəki sağlam rəqabət də nailiyyətlərin artmasına yardımçı olur.

***Əlizadə Afaq (II qrup, 638)*** – Mən məktəblərdə, xüsusən kənd məktəblərində tədrisin daha yüksək olmasını istərdim. Şagirdlərin də, müəllimlərin də bilik səviyyəsinin yüksəldilməsi, həmçinin ciddi nizam-intizam yaradılması vacibdir.

***Bayramova Ülviyyə (II qrup, 631)*** – İstərdim ki, Gəncə şəhərində yerləşən universitetlərdə ixtisasların sayı artırılsın.

***Quliyeva Ülkər (II qrup, 626)*** – Təklifim budur ki, sualların çətinlik dərəcəsi azaldılsın, müsabiqə şərtləri qaldırılsın. Çünki 150 bal toplayan abituriyentin yüksəkixtisaslı, peşəkar kadr olması mümkün deyil.

***Məmmədova Fidan (II qrup, 624)*** – İmtahan zamanı abituriyentlərin tək-tək oturmalarını məsləhət görərdim. Belə olarsa, savadsız uşaq savadlı uşağa mane olmaz və obyektivlik də tam təmin olunar.

***Zülfüqarova Zərifə (II qrup, 621)*** – Açıq tipli sualların çətinlik dərəcəsi azaldılıb onlara nisbi bal məhdudiyyəti tətbiq olunsa, yaxşı olar.

***Buğdaliyev Zəkəriyyə (II qrup, 619)*** – İxtisas qrupunu və ixtisasını abituriyentin özü müstəqil olaraq seçsə, daha yaxşı olar. Bu məsələdə müəllimlər, valideynlər və dostlarla fikir mübadiləsi, qarşılıqlı müzakirə effektli ola bilər.

***Ələsgərov Əli (II qrup, 619)*** – Azərbaycan tarixi dərsliklərində o qədər lüzumsuz xırdalıqlara yer verilib ki, abituriyent məcburən onları əzbərləyir, ancaq qəbul imtahanından sonra onları, təbii ki, unudur. Bu məsələni diqqət mərkəzinizdə saxlamağı xahiş edirəm.

***Abbasov Rafiq (II qrup, 618)*** – Qəbul imtahanlarındakı sualların çətinlik dərəcəsinin azaldılmasını məsləhət görərdim. Çünki hazırda elə bir vəziyyət yaranıb ki, hətta ən savadlı şagird belə repetitor olmadan qəbulda yüksək nəticə əldə edə bilmir.

***Kərimov Ayaz (II qrup, 613)*** – Qəbul imtahanlarının may-iyun aylarında keçirilməsini istərdim.

***Sadıqova Şəbnəm (II qrup, 604)*** – Bütün abituriyentlərə məsləhət görərdim ki, qəbul imtahanlarına hazırlaşarkən bu günün işini sabaha qoymasınlar, çünki mövzuları vaxtında öyrənmədikdə üst-üstə yığılır və onların qavranılması çətinləşir.

***Sayılova Şəhla (III qrup, 665)*** - Bütün gənclərə tövsiyəm odur ki, biz də təhsilimizin güclənməsinə öz töhfəmizi verək.

***Abbaslı Fidan (III qrup, 663)*** - Təklif edərdim ki, buraxılış imtahanı ilə qəbul imtahanı birləşdirilsin.

***Nəsibli Firuzə (III qrup, 660)*** - İmtahanda abituriyentlərin tək-tək əyləşdirilməsini, bir-birinə mane olmamaq üçün daha ciddi nəzarətin olmasını təklif edirəm.

***Hacıyev Səmid (III qrup, 652)*** - Sınaq imtahanlarının sayının artırılmasını məqsədəuyğun sayıram.

***Sadıqova Tünzalə (III qrup, 605)*** - Təklif edirəm ki, qəbul imtahanları bütün fənlər üzrə keçirilsin.

***Rüstəmli Toğrul (IV qrup, 664)*** - Əzbərçilik tələb edən test suallarının qəbul imtahanından çıxarılmasını təklif edərdim.

***Məmmədzadə Aytac (IV qrup, 658)*** - İstərdim ki, sınaq imtahanlarının sayı artırılsın.

***İsazadə Nigar (IV qrup, 647)*** – Yaxşı olardı ki, IV ixtisas qrupunun test imtahanı fənləri blokuna xarici dil də daxil edilsin.

**Əziz şagirdlər, sizə builki bilik yarışı öncülləri ilə keçirilmiş anket sorğunun materiallarından, onların məsləhət və tövsiyələrindən yararlanmağı, qəbul imtahanlarına hazırlaşarkən onların təcrübəsindən bir örnək, nümunə kimi yaradıcı şəkildə istifadə etməyi məsləhət görürük.**

***Materialı hazırladılar:***
*“Abituriyent”in analitik-informasiya qrupunun üzvləri*
*Rabil Novruzov*
*Sədi Nuriyev*
*Məhbubə Yusubova*
*Zöhrə Əliyeva*
*Cəvahirat Şirinova*



*Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına hər il imtahanların təşkili, gedişi və nəticələri ilə bağlı çoxlu sayda yazılı və elektron məktublar, teleqram və müraciətlər daxil olur. Eyni zamanda abituriyentlər arasında aparılan anket sorğusuna cavablarda bu məsələlərə münasibət bildirilir. Burada ictimai rəyin əks-sədası olan belə materiallardan bir neçə nümunəni dərc edirik.*

# MƏKTUBLARDAN SƏTİRLƏR

**Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasının sədri**
**M.Abbaszadəyə**

Bu il mən III ixtisas qrupu üzrə qəbul imtahanında 653 bal toplayaraq Bakı Dövlət Universitetinin Hüquqşünaslıq fakültəsinə qəbul olmuşam. Qəbula hazırlıq işində mənə hər cür şərait yaradan valideynlərimə, mənə bilik verən müəllimlərimə sonsuz təşəkkürümü bildirirəm. Mən tam əmin oldum ki, əgər insan istəsə, ciddi çalışsa, öz arzusuna çata bilər. Əlbəttə, qəbul imtahanlarının təşkil edilməsi səviyyəsindən də çox şey asılıdır. Mən imtahan prosesinin yaxşı təşkilinə görə Sizə öz dərin təşəkkürümü bildirirəm. Onu da deyim ki, mən qəbula hazırlaşan zaman Sizin nəşr etdiyiniz vəsaitlərdən də çox bəhrələnmişəm. Bu vəsaitlərin hazırlanmasında əməyi olan şəxslərə də dərin minnətdarlığımı bildirirəm.

Hörmətli Məleykə xanım, Sizin və rəhbərlik etdiyiniz kollektivin Azərbaycanın gələcəyi olan bugünkü gənclərin taleyinin həllində böyük rolunuz var. O da yaxşı məlumdur ki, bu işdə dövlətimiz hər zaman Sizə böyük dəstək verir. Azərbaycan gəncliyinin inkişafına göstərdiyi böyük diqqət və qayğıya görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə dərin təşəkkürümü bildirirəm.

*Südabə Qurbanova,*
*BDU-nun hüquqşünaslıq*
*fakültəsinin I kurs tələbəsi*

**TQDK-nın sədri**
**Məleykə Abbaszadəyə**

Hörmətli Məleykə xanım və TQDK əməkdaşları! Sizlərə öz minnətdarlıq hissimi bildirməyi borc bilirəm. Həyata keçirdiyiniz ədalətli, şəffaf qəbul prosesi ilə mən də bu il yaxından tanış oldum. Təşkilatçısı olduğunuz istər buraxılış, istərsə də qəbul imtahanlarının gedişi məni çox qane etdi. Cəmi 3 saat ərzində biliyimizin hərtərəfli yoxlanılması və düzgün qiymətləndirilməsi nəticəsində mən də tələbə adına layiq görüldüm. Ailəmiz də biliyin TQDK tərəfindən obyektiv qiymətləndirilməsindən çox razılıq edir. Sizə bu məsuliyyətli işinizdə hər zaman irəliyə, zirvələrə doğru addımlamağı arzu edirəm. Bir daha təşəkkürümü bildirirəm!

*Atakişiyev Xaliq Azər oğlu,*
*Turizm İnstitutunun*
*"Turizm və otelçilik"*
*ixtisasının 1-ci kurs tələbəsi*

**Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasının sədri**
**M.Abbaszadəyə**

**Hörmətli Məleykə xanım!**

Məktəbdə təhsil aldığım illərdə ən böyük istəyim ali təhsil müəssisəsinə qəbul olmaq olub. Bu, valideynlərimin də böyük arzusu idi. Yuxarı siniflərdə oxuduğum vaxt imkansızlıq üzündən repetitor yanına gedə bilmədiyim üçün ali məktəbə qəbul ola biləcəyimə inamım azalırdı. Ancaq orta məktəbdə dərslərimi yaxşı oxumağa davam edirdim. Məktəb dərslikləri ilə bərabər TQDK-nın nəşr etdiyi test topluları və vəsaitlərdən də istifadə edir, qəbula müstəqil şəkildə hazırlaşırdım. TQDK-nın keçirdiyi ilk sınaq imtahanında yüksək bal topladım və tələbə olacağıma inamım artdı. Nəhayət ki, qəbul imtahanında 253 bal topladım. Bu uğuruma səbəb, şübhəsiz ki, yaxşı oxumağımla yanaşı, TQDK-nın imtahan suallarını sırf məktəb proqramına uyğun tərtib etməsi və obyektiv imtahan keçirməsi oldu. Bunun üçün TQDK-nın rəhbərliyinə və bu işdə əməyi olan hər bir kəsə öz dərin təşəkkürümü bildirirəm.

*Tağıyev Aləm,*
*Memarlıq və İnşaat Universitetinin*
*İnşaat mühəndisliyi ixtisasının*
*1-ci kurs tələbəsi*

**Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasına!**

Builki qəbul imtahanında 620 bal toplamışam. Hələ məktəbdə aşağı siniflərdə oxuduğum vaxtlarda TQDK-nın keçirdiyi imtahanların şəffaf, obyektiv və ədalətli olduğu barədə çox eşitmişdim. Yuxarı siniflərdə buraxılış və sınaq imtahanlarında iştirak etdim və bu imtahanların yüksək səviyyədə təşkil edildiyinin, sualların məktəb proqramına və dərsliklərə uyğun tərtib olunduğunun şahidi oldum. Nəhayət, qəbul imtahanında iştirak etdim və yüksək bal topladım. Əminliklə deyə bilərəm ki, imtahan çox ədalətli və obyektiv keçdi. Biliyə layiqli qiymət verildiyi üçün başda Məleykə xanım Abbaszadə olmaqla TQDK-nın əməkdaşlarına dərin minnətdarlığımı bildirirəm.

*Quluzadə Aydan,*
*Azərbaycan Dillər Universitetinin*
*Tərcümə ixtisasının*
*1-ci kurs tələbəsi*

**TQDK-nın sədri M.Abbaszadəyə**

Hörmətli Məleykə xanım , Sizin və rəhbərlik etdiyiniz kollektivin qəbul kampaniyasını bizlər üçün rahat, ədalətli, qüsursuz, bir sözlə, yüksək səviyyədə keçirdiyinizə görə Sizə dərin təşəkkürümü bildirirəm. Sizin sayənizdə biz gənclərin çəkdiyi zəhmət obyektiv qiymətləndirilir və bu, məncə, ölkəmizə, onun gələcəyinə ən layiqli xidmətdir. Sizə gələcək işlərinizdə də böyük uğurlar arzulayıram.

*Zeynəb Tağıyeva,*
*Milli Aviasiya Akademiyasının*
*Avianəqliyyat istehsalatının*
*təşkili mühəndisliyi*
*ixtisasının I kurs tələbəsi*

**REDAKSİYA ŞURASI**
M.M.Abbaszadə, N.Ə.Babayev,
F.Ş.Bədəlbəyli,
A.Q.Abiyev, Ə.T.Əmiraslanov,
A.M.Məhərrəmov, P.A.Nağıyev,
A.M.Paşayev.

**REDAKSİYA HEYƏTİ**
T.A.Bədəlov (baş redaktor),
R.H.Novruzov (baş redaktorun I müavini), İ.M.Allahverdiyev,
A.H.Bağırov, G.M.Balacanova,
A.H.Batıyeva, N.N.Bayramova,
M.Ə.Əkbərli, V.O.Əkbərov,
N.L.Əliyev, X.S.Əzimova,
A.E.Həbibov, S.T.Həsənzadə,
N.Z.Hüseynova, Ç.C.Xəlilov,
X.Z.Kərimova, A.Ə.Qasımov,
S.S.Mərdanov, C.F.Orucov,
Ç.İ.Rüstəmov, O.Y.Şelaginov,
H.R.Zeynalov.

**Dİl və üslub üzrə redaktorlar:**
R.H.Novruzov, S.Ş.Nuriyev,
N.M.Musayev

**Kompüter və dizayn:**
M.Ə.Bədəlov, A.Ə.Axundova,
İ.İ.Cəfərov.

**Redaksiyanın ünvanı:**
AZ1078, Bakı şəhəri,
A.Salamzadə küçəsi, 28.

**Telefon:**
440-30-09 (TQDK)

**E-mail:**
abiturient.journal@gmail.com

**http:**
www.abiturient.az

Jurnal Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. (Lisenziya B 171, 18 fevral 1999)

**© TQDK - «Abituriyent»**

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi razılığı olmadan jurnalın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması
**QADAĞANDIR!**

Jurnal Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi materialları əsasında hazırlanmışdır.

Çapa imzalanmışdır 14.11.2014.
Tiraj 400.

Jurnal “Şərq-Qərb” mətbəəsində çap olunmuşdur.

Reklam materiallarının məzmununa görə redaksiya cavabdeh deyil.

# Mündəricat

| | |
|---|---|
| 1 | PREZİDENT TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI |
| 3 | TQDK-nın SƏDRİ M.ABBASZADƏNİN TƏBRİK VƏ TÖVSİYƏLƏRİ |
| 4 | PREZİDENT TƏQAÜDÇÜLƏRİ HAQQINDA MƏLUMAT |
| 8 | QƏBUL İMTAHANLARINDA YÜKSƏK NƏTİCƏLƏR ƏLDƏ ETMİŞ GƏNCLƏR HAQQINDA MƏLUMAT |
| 13 | ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ GƏNCLƏRLƏ MÜSAHİBƏLƏR |
| 26 | QƏBUL İMTAHANLARINDA 600-dən YUXARI BAL TOPLAMIŞ ABİTURİYENTLƏR |
| 38 | I QRUP |
| 69 | II QRUP |
| 96 | III QRUP |
| 115 | IV QRUP |
| 143 | QƏBUL İMTAHANLARINDA YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ GƏNCLƏRLƏ ANKET SORĞUSUNUN NƏTİCƏLƏRİ |
| 148 | BİLİK YARIŞI ÖNCÜLLƏRİNİN GƏLƏCƏK ABİTURİYENTLƏRƏ MƏSLƏHƏT VƏ TÖVSİYƏLƏRİ |
| 154 | RƏYLƏR, TƏKLİFLƏR, ARZULAR |
| 158 | MƏKTUBLARDAN SƏTİRLƏR |

## "Abituriyent" jurnalının 12-ci sayında:

- 2014/2015-Cİ TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BAKALAVRİAT SƏVİYYƏSİNƏ TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİNİN ELMİ-STATİSTİK TƏHLİLİ
- ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİ
- ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİ
- DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULUNUN MÜQAYİSƏLİ TƏHLİLİ
- XÜSUSİ TƏYİNATLI TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİ
- BÖLGƏLƏR ÜZRƏ 2014-CÜ İL MƏZUNLARININ QƏBUL İMTAHANLARINDAKI NƏTİCƏLƏRİNİN TƏHLİLİ
- ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL
- REZİDENTURAYA QƏBUL
- ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TAM ORTA VƏ ÜMUMİ ORTA TƏHSİL BAZALARINDA TƏLƏBƏ QƏBULUNUN NƏTİCƏLƏRİ
- TQDK-NIN İCTİMAİYYƏTİN İSTİFADƏSİNƏ VERİLMİŞ NƏŞRLƏRİ HAQQINDA MƏLUMAT
- TQDK-NIN 2014-CÜ İLDƏ FƏALİYYƏTİ: FAKTLARIN XRONOLOGİYASI